# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Günnüt əməliyyatı: Böyük Zəfərə gedən yolun bələdçisi**



13

## Türkiyə-Pakistan-Azərbaycan - qardaşlıq nümunəsi!



4


№ 092 (7260)

28 may 2025-ci il.
Qiymәti 60 qәpik


# Müstəqillik: qazandıq və qoruyub əbədi etdik!

**Bu gün 28 May - Müstəqillik Günüdür**



5

## Uğurlu vasitəçi



10

**Makron arvadı Bricitdən aldığı şillənin səbəbini açıqlayıb**



6

**Blok imtahanı: suallar çətin, variantlar ikibaşlı**



12

**Otun bahalaşması ətin qiymətinə necə təsir edir?**



16

**Xeyr, bu artıq toy deyil, nədirsə, başqa şeydir**



8

# Böyük Qayıdış:
## Laçının inkişafına verilən töhfələr

### Prezident İlham Əliyev: "Bərpa edilmiş şəhər və kəndlərimizin sayı 15-ə çatıb"

Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. 44 günlük vətən müharibəsində Azərbaycan Zəfər qazandı. Vaxtilə "Qarabağ Ermənistandır", - deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Əlbəttə ki, 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrasturuktur yaradılır. Məlumdur ki, 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət proqramı"na müvafiq olaraq, işlər həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərə səfərləri çərçivəsində bir sıra məkanlarda təməlqoyma mərasimləri, yeni müəssisələrin və s. açılışı buralarda aparılan abadlıq-quruculuq işlərinin sürətindən və davamlılığının göstəricisidir. İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və görülən işlərə dövlət başçımız şəxsən nəzarət edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun gücü sayəsində azadlığına qovuşan Laçın yeni bir dövrünə - quruculuq və inkişaf dövrünə qədəm qoyub.







Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqillik günü ərəfəsində Laçın rayonunun Bəylik kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib. "May ayı sizin üçün ikiqat bayram ayı olacaq - həm müstəqillik bayramı, həm də Bəyliyə qayıtdığınız gün. Amma may ayı laçınlılar üçün faciəvi ay olmuşdur. Məhz may ayında Laçın işğala məruz qaldı, Şuşa işğalından 10 gün sonra. Bu, böyük bir faciə idi, böyük bir bəla idi həm sizin üçün, həm də bütün ölkəmiz üçün. Çünki məhz Laçının işğal altına düşməsi müharibədə ondan sonrakı uğursuzluqlarımızın təməlini qoydu. Çünki ovaxtkı Dağlıq Qarabağ bölgəsi coğrafi nöqteyi-nəzərdən Ermənistanla birləşdi. Mənfur Laçın dəhlizi açıldı, hansı ki, indi yoxdur. Artıq uzun illərin Laçın-Xankəndi yolu var. Laçın dəhlizi tarixdə qaldı". Bu sözləri Prezident İlham Əliyev Laçın rayonunun Bəylik kəndinə köçən sakinlərlə görüşündə söyləyib. Həmin dövrdə Azərbaycanda hakimiyyət uğrunda mübarizə getdiyini xatırladan dövlətimizin başçısı deyib: "O vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyü xəyanət, satqınlıq etmişdir və torpaqlarımızın işğal altına düşməsində onların böyük mənfur payı var. Məhz Laçın işğala məruz qalandan bir ay sonra onlar öz istəklərinə nail olub hakimiyyətə gəldilər, o da ölkəmiz üçün böyük bəlaya gətirib çıxarmışdır. Hakimiyyətə gəlmək üçün torpaqları satmaq, düşmənə təhvil vermək böyük cinayətdir, böyük xəyanətdir, satqınlıqdır, qorxaqlıqdır. Amma o, artıq tarixdə qaldı. O tariximizin qara səhifəsi çoxdan bağlandı. Azərbaycan bu gün bütün ərazisində öz suverenliyini bərpa edib. May ayı bundan sonra ancaq sizin üçün, bizim hamımız üçün bayram ayı kimi olacaqdır".



Azərbaycanın siyasi iradəsi, iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Vətən müharibəsindən ötən dörd il yarım müddətində işğaldan azad olunmuş ərazilərdə görülən işlər bunun təzahürüdür. Həmin ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələr həyata keçirilib.

### YENİ İSTEHSAL VƏ XİDMƏT MÜƏSSİSƏLƏRİ İSTİFADƏYƏ VERİLİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın rayonuna növbəti dəfə səfər edib və yeni müəssisələrin açılışında iştirak edib,

Uzun illər Ermənistan tərəfindən işğala məruz qalmış Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı layihələr regionun iqtisadi potensialının reallaşdırılması ilə paralel şəkildə davam etdirilir. Yeni istehsal və xidmət müəssisələrinin istifadəyə verilməsi əhalinin dayanıqlı məskunlaşmasına və məşğulluğun təmininə geniş şərait yaradır. Eyni zamanda, Laçın Sənaye Parkında istehsal müəssisələrinin qurulması innovativ texnologiyaların tətbiqi və ixracyönümlü məhsul hazırlanması baxımından böyük əhəmiyyət daşıyır. Bütün bu addımlar Qarabağı və Şərqi Zəngəzuru ölkənin iqtisadi inkişafının mühüm komponentlərindən birinə çevirir, bölgənin ümumilikdə ölkə iqtisadiyyatına inteqrasiyasını sürətləndirir. Dövlət başçımız "LATIFA" Laçın tikiş fabrikinin açılışında iştirak edib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2023-cü il avqustun 26-da açılışı olmuş "Laçın Aqro-Sənaye Parkı" fəaliyyətini genişləndirir. Rayonun Zerti kəndində yerləşən Parkda artıq 12 müəssisə fəaliyyət göstərir. Sənaye parkında daha iki müəssisənin işə başlaması nəzərdə tutulur. Bunlardan biri "LATIFA" Laçın tikiş fabrikidir. Ümumi dəyəri 1,2 milyon manat olan müəssisədə 30 yeni iş yeri yaradılacaq. Fabrikdə gündə 2 min ədəd tekstil məhsulu istehsal olunacaq. Buraya ev tekstili, idman dəstləri, eksklüziv geyimlər və digər məhsullar daxildir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də "PIRSHAGHI" ayaqqabı fabrikinin Laçın filialının açılışında iştirak edib. "Laçın Aqro-Sənaye Parkı"nda işə başlayan müəssisələrdən biri də "PIRSHAGHI" ayaqqabı fabrikinin Laçın filialıdır. Ümumi dəyəri 367,9 min manat olan müəssisədə əsasən Laçın sakinləri olmaqla 15 nəfər işlə təmin ediləcək. Müəssisə kişi, qadın və uşaqlar üçün ayda 1500 cüt ayaqqabı istehsal etmək gücündədir. Müasir avadanlıqlarla təchiz olunmuş fabrikdə idman və klassik üslubda ayaqqabılar istehsal ediləcək. Müəssisə daxili bazarda satış həyata keçirməklə yanaşı, istehsal etdiyi məhsulları Avropa ölkələrinə ixrac etməyi də planlaşdırır.

"Laçın Aqro-Sənaye Parkı"nda ümumilikdə 46 müəssisənin fəaliyyət göstərməsi nəzərdə tutulub. Burada mebel fabrikləri, balıq təsərrüfatı, yeyinti sənayesi, yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzi və digər müəssisələr yaradılacaq.

*Ardı Səh. 3*







# Böyük Qayıdış:

## Laçının inkişafına verilən töhfələr

### Prezident İlham Əliyev: "Bərpa edilmiş şəhər və kəndlərimizin sayı 15-ə çatıb"

Əvvəli Səh. 2

Regionda yeni iş yerlərinin yaradılması, infrastrukturun bərpası və sahibkarlıq fəaliyyətinə dəstək iqtisadi fəallığın canlanmasına səbəb olur. "Laçın Aqro-Sənaye Parkı" bu xüsusda olduqca mühüm rol oynayır.

### CƏNNƏT DİYARIMIZ: LAÇIN KANAT YOLU

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl". Əlbəttə ki, Bu ərazilərdə görülən işlər bu fikirləri bir daha təsdiqləyir. Cənnət diyarımız Laçındayıq! İşğaldan azad olunduqdan sonra qısa zamanda bərpa edilən Laçında çox mühüm sosial-infrastruktur layihələri həyata keçirilməkdədir. Bu xüsusda Laçında turizm infrastrukturuna xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın kanat yolunun təməlini qoyub. Laçının füsunkar təbiəti, turizm imkanları nəzərə alınaraq rayonda turizm infrastrukturunun qurulmasına da xüsusi diqqət yetirilir. Bu məqsədlə yaradılan Laçın kanat yolu şəhərin Bulvar ərazisində yerləşəcək və iki hissədən ibarət olacaq. Kanat yolunun hündürlüyü 300 metr, xəttinin uzunluğu isə 1720 metr olacaq, hərəkət müddəti 6 dəqiqə təşkil edəcək. Ümumilikdə 17 kabinədən ibarət kanat yolu saatda 800 sərnişinə xidmət edə biləcək. Kanat yolunun yerləşdiyi, uzunluğu 2 kilometrə yaxın olan Bulvar ərazisi bu gün həm yerli sakinlərin, həm də turistlərin sevimli məkanlarından biridir.










### ƏHALİNİN ELEKTRİK ENERJİ TƏCHİZATININ FASİLƏSİZLİYİNİN VƏ DAYANAQLILIĞININ TƏMİNİ

Laçında görülən işlərdən biri də Laçın Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzinin yaradılmasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Mərkəzin açılışında iştirak edib. Laçın Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzindən şəhərin ərazisində yerləşən istehlakçıların - yeni salınan yaşayış komplekslərinin, tikintisi aparılan sənaye və sosial təyinatlı infrastrukturun, kənd təsərrüfatı və turizm obyektlərinin, xüsusən əhalinin elektrik enerji təchizatının fasiləsizliyinin və dayanaqlılığının təmin olunması nəzərdə tutulur. Mərkəz elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Burada hər birinin gücü 1600 kVA olan iki ədəd güc transformatoru, müasir avadanlıqlarla təchiz olunmuş 35 kV-luq və 0,4 kV-luq qapalı paylayıcı qurğular quraşdırılıb. Mərkəzin elektrik təchizatı üçün "Laçın" yarımstansiyasından 4,8 km uzunluğunda ikidövrəli elektrik verilişi xətləri çəkilib. Burada quraşdırılan müasir avadanlıq bütün texnoloji ölçmələrin yüksək dəqiqliyini və vahidliyini təmin edir ki, bu isə öz növbəsində şəbəkənin etibarlı istismarını dəstəkləməklə yanaşı, elektrik enerjisinin ötürülməsi zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına şərait yaradır. Mərkəzdə, həmçinin istehlakçıların elektrik enerjisi verilişində planlı fasilələrin yaranması barədə onlayn qaydada əvvəlcədən məlumatlandırılma imkanı yaradılıb. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi Rəqəmsal İdarəetmə Mərkəzində avtomatik idarə olunduğundan elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, həmçinin cihaz və avadanlıqların qarşılıqlı koordinasiyasını tam təmin edən mərkəz vasitəsilə əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılması həyata keçirilir.

### BƏYLİK KƏNDİNƏ ÜMUMİLİKDƏ 90 AİLƏ KÖÇÜRÜLƏCƏK

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın rayonunun Bəylik kəndinin açılışında da iştirak edib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Laçın rayonunda, o cümlədən Bəylik kəndində genişmiqyaslı quruculuq işləri aparılır. Prezident İlham Əliyev Laçın rayonunun Bəylik kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olub. Buradakı otaqlarda rəqs və digər dərnəklər fəaliyyət göstərəcək. Binadakı zalda əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin, eyni zamanda, gənclərin toplantı və görüşlərinin keçirilməsi üçün hərtərəfli şərait var. Bəylik kəndində evlərin, sosial obyektlərin, küçələrin işıqlandırılmasında yaşıl enerjidən istifadə edilir. Bu məqsədlə digər obyektlər kimi klub-icma mərkəzinin binasının damında da günəş panelləri quraşdırılıb.

Sonra Prezident İlham Əliyev Bəylik kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub. Qeyd edək ki, tamamilə yenidən tikilən kəndə ümumilikdə 90 ailə - 360 nəfərin köçürülməsi nəzərdə tutulur. Ərazisi 29,6 hektar olan kənddə 91 fərdi ev inşa olunub. Evlərdən 13-ü iki, 50-si üç, 15-i dörd, 13-ü isə beşotaqlıdır.

Bəylik kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr tikilib, kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Azad edilmiş ərazilərdə bu günə qədər artıq 40-43 min adam yaşayır. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan torpaqlarımıza səfər edərək, erməni vandallarının törətdiyi əməlləri bir daha xalqımıza göstərir və bu ərazilərdə görüləcək işlərlə balı tapşırıq və göstərişlərini verir. Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, ərazilərimizi viran qoysalar da, xalqımza məxsus din-mədəniyyət abidələrin dağıtmış olsalar da, tarixi həqiqət qələbə çalıb. Azərbaycan öz haqqına qovuşub və bu gün quruculuq meydanındadır.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin 1 dekabr tarixində xalqa müraciətində Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdi. "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq" - deyən Cənab Prezident qeyd etmişdi ki, döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı: "Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Bu gün Laçında da yeni həyat başlayır. Laçında abadlıq-quruculuq işləri həyata keçirilir.

"Gözəl evlər, yollar, elektrik enerjisi, təbii qaz, su, həyətyanı sahə, yəni, yaşamaq üçün, çalışmaq üçün bütün imkanlar var. Belə gözəl, təbii şəraitdə yaşamaq, özü də öz torpağında yaşamaq, əlbəttə, əminəm ki, sizin üçün çox xoşdur. Bu, böyük xoşbəxtlikdir. Biz 30 illik erməni işğalına son qoyandan sonra dərhal bütün rayonlarda bərpa-quruculuq işlərinə start verildi, erməni vandallığına məruz qalmış kəndlər yenidən quruldu. Bəylik kəndi də ermənilər tərəfindən yerlə-yeksan edilmişdi. İndi gözəl yaşayış məntəqəsi yaradılmışdır", - deyə Prezident bildirib.

***Zümrüd BAYRAMOVA***

# Türkiyə-Pakistan-Azərbaycan - qardaşlıq nümunəsi!



Bu gün Türkiyə, Pakistan, Azərbaycan arasında birlik, dostluq, qardaşlıq əlaqələrinin inkişafı göz qabağındadır. Milli maraqlara söykənən qarşılıqlı münasibətlərin tarixi də qədimdir, necə deyərlər, zamanın sınaqlarından alnı açıq çıxıb. Bu münasibətlər təkcə iqtisadi, siyasi müstəvidə deyil, bütün mənalarda sağlam düşüncə, sağlam ruh üzərində qurulub. 34 il geri qayıdaq, Azərbaycanın müstəqilliyini elan etməsi Ermənistanın havadarlarının, beynəlxalq güclərin dəstəyi ilə torpaqlarımıza təcavüzü ilə eyni vaxta təsadüf edirdi. Bizə mənəvi, hərbi, iqtisadi, siyasi, psixoloji dəstəyi verən ölkələrin sırası isə çox seyrək idi. Amma Türkiyə və Pakistanın dost, qardaş nəfəsini hər yerdə hiss edirdik. Bu bizə güc verirdi, erməni faşistləri ilə savaşa ruhlandırırdı.

İkinci Qarabağ müharibəsində Türkiyə təmənnasız olaraq Azərbaycanın yanında yer aldığı kimi, Pakistan da Azərbaycana açıq dəstəyini ifadə etdi. Dünyada Azərbaycan və Türkiyə qədər hər cəhətdən bir-birinə yaxın olan digər iki dövlət tapmaq çətindir. Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinə əsaslanan əlaqələr zamanın sınağından uğurla çıxıb və indiyədək heç bir kənar qüvvə bu əlaqələrə hansısa bir formada zərər vura bilməyib. İki ölkə arasındakı əsl dostluq və qardaşlıq münasibətlərinin mahiyyəti xalqımızın ümummilli lideri Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" kəlamlarında dəqiq ifadə olunub. Azərbaycan və Türkiyə xoş günlərin sevincini bölüşdükləri kimi, çətin günlərdə də daim bir yerdə olublar. Bunu aşağıdakı iki nümunənin timsalında təsdiqləyə bilərik. Qardaş ölkə artıq tarixdə qalan "Dağlıq Qarabağ münaqişəsi"nin davam etdiyi üç onillik ərzində Azərbaycanın yanında olub, qələbəmizin qazanılmasında dəstəyini əsirgəməyib .

Azərbaycan da ən çətin vaxtlarında Türkiyəni tək buraxmayıb, qardaş köməyini əsirgəməyib. Baş verən dəhşətli zəlzələdə Azərbaycan Türkiyəyə ilk yardım əli uzadan ölkə oldu. Yaralıların müalicəsində, evini itirmiş insanların mənzillə təminatında yaxından iştirak edən ölkəmiz sonuna qədər problemin həllinə çalışdı. Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan hökuməti zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində yeni yaşayış məhəlləsinin tikintisinə dəstək verib. Türkiyə hökumətinin dəstəyi ilə layihə ərazisi "Azərbaycan Məhəlləsi" adlandırılıb.

Onsuz da müttəfiqlər olan iki qardaş ölkə Şuşa Bəyannaməsi ilə bu münasibətləri bir daha rəsmiləşdirdilər. Azərbaycanla Türkiyə arasında 2021-ci il 15 iyun tarixində imzalanan Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, milli maraq və mənafelərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan və Pakistan arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub. Müşahidə edilən odur ki, Azərbaycan-Pakistan münasibətlərinin yüksələn xətlə inkişafına həm dövlətlər səviyyəsində qətiyyətli siyasi iradə nümayiş etdirilir, həm də buna cəmiyyətlərimizin böyük istəyi var. Prezident İlham Əliyevin Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfəri çərçivəsində mətbuata verdiyi bəyanatında bildirdiyi kimi, Pakistan və Azərbaycan hər zaman çiyin-çiyinə dayanan ölkələr olubdur. Məhəmməd Şahbaz Şərif isə iki ölkə arasındakı münasibətlərin yüksək səviyyəsindən bəhs edərkən "Pakistan və Azərbaycan iki qardaş xalqdır. Bizim münasibətlərimiz qarşılıqlı dəstək, səmimiyyət və ehtiram üzərində qurulub" deyib.

Üçtərəfli əməkdaşlıq

Ortaq maraqlara, təşəbbüslərə söykənən Türkiyə-Pakistan-Azərbaycan münasibətləri 2020-ci ildən etibarən yeni mərhələyə qədəm qoyub. Bu əməkdaşlıq siyasi və hərbi sahələrlə yanaşı, humanitar, təhsil və iqtisadi sahələrdə də özünü göstərməkdədir. Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir, Orta Dəhlizin təşəbbüskarı, qlobal Şərq-Qərb nəqliyyat və enerji damarını hərəkətə gətirən, ona impuls verən sinir sistemidir. Azərbaycanın coğrafi mövqeyi ona uğurların əldə edilməsində böyük dəstək verir, amma ölkə rəhbərimizin prinsipiallığı, kəskin iradə nümayişi, etibarlılıq və etimada söykənən əlaqələrin qurulmasındakı təşəbbüsləri qlobal layihələrdə legitimliyimizi təmin edilməsində başlıca rol oynayır.

Azərbaycan Cənubi Qafqazın ən böyük enerji təchizatçısıdır, öz enerji resurslarını Türkiyə vasitəsilə Avropaya tədarük edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi strateji layihələr bu əməkdaşlığın əsasını təşkil edir. 2020-ci ildən tam fəaliyyətə başlayan TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) layihəsi isə Azərbaycan qazını Türkiyə üzərindən Avropaya çatdırmaq üçün yeni imkanlar yaradıb. Hər gün genişlənən enerji əlaqələri Azərbaycan və Türkiyə arasında daha bir mühüm layihə - İğdır-Naxçıvan qaz kəmərinin reallaşması ilə yekunlaşıb. Bununla da blokada şəraitində yaşayan Naxçıvanın enerji təhlükəsizliyini təmin etmək mümkün olacaq.

Azərbaycan və Pakistan arasındakı münasibətlər diplomatik əlaqələrlə yanaşı, çoxəsrlik qardaşlıq bağları ilə formalaşıb. Pakistan Azərbaycanın müstəqilliyini ilk tanıyan ilk ölkələrdəndir, Qarabağ münaqişəsində Azərbaycanın haqq səsini dünyaya çatdıran tərəfdaşımızdır. 44 günlük Vətən müharibəsində Pakistanın Azərbaycanın yanında olmaqla, siyasi dəstək verməklə dünyaya bir ədalət dərsi keçdi, beynəlxalq münasibətlər sisteminin iflasa uğradığını, amma haqqın hələ də üzülmədiyini öz əməli addımları ilə nümayiş etdirdi. Bu, iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qaldırdı. Azərbaycan Prezidenti İlham Əliyev Pakistanla əlaqələrimizi belə xarakterizə edib: "Ölkələrimiz arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub. Biz Pakistana minnətdarıq ki, işğal dövründə Azərbaycana dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı da bizə güclü dəstək göstərib. ... Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır".

Azərbaycan ilə Pakistan arasında iqtisadi əməkdaşlıq son zamanlar genişlənməkdə, yeni rəng çalarları ilə digər dost ölkələri də bu birliyə inteqrasiya etməyə çağıran amildir. Azərbaycan və Pakistanın zəngin mədəniyyəti xalqlarımız arasından birliyi daha da möhkəmləndirir. Bu istiqamətdə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi vurğulamaq lazımdır.

Azərbaycan, Türkiyə və Pakistan arasında üçtərəfli əməkdaşlıq yeni keyfiyyət mərhələsinə qədəm qoyub, intensiv siyasi dialoq, iqtisadi təşəbbüslər və təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətlə daha da möhkəmlənib. Üç ölkə liderləri arasında yüksək səviyyəli görüşlərin təşkil olunması, bu əməkdaşlığın strateji xarakterini bir daha təsdiqləyir.

***V.VƏLİYEV***



## Laçında Prezident İlham Əliyevin Pakistanın Baş naziri ilə məhdud tərkibdə görüşü keçirilib

Mayın 27-də Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə məhdud tərkibdə görüşü keçirilib.

# Müstəqillik: qazandıq və qoruyub əbədi etdik!

*Bu gün 28 May - Müstəqillik Günüdür*



***Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizdə 28 may 1918-ci ildə bütün türk-müsəlman dünyasının ilk müstəqil demokratik respublikası yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin çoxəsrlik ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi idi. Azərbaycan xalqının müstəqillik əzmini nümayiş etdirən Azərbaycan Xalq Cümhuriyyəti öz varlığı ilə XX əsr dünya siyasi arenasına səs saldı. Ümummilli Liderimiz Heydər Əliyev cümhuriyyət tarixini "İstiqlaliyyətimizin sübhü" adlandırırdı. Artıq bizləri o sübhdən 107 illik bir zaman fasiləsi ayırır. Ötən illərdə o istiqlalın canımıza, qanımıza hopan şirinliyi bizi mübarizəyə səsləyib, xalqımıza yenidən müstəqillik bəxş edib.***

"... Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq", - deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 oktyabr 2021-ci il imzaladığı "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə mayın 28-i Müstəqillik Günü, 1991-ci ildə ikinci dəfə müstəqilliyimizi qazandığımız gün-oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi. Qanunda deyilir: "2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir". Beləliklə, 1918-ci ildə əldə etdiyimiz müstəqilliyimiz istiqlaliyyətimizin sübhü olaraq ondan sonrakı illərə sübh çağında doğan günəş kimi işıq saçdı. Bu xalqın bir əsrlik salnaməsinin başlanğıcı oldu.

## İstiqlal Bəyannaməsi: bir millətin çoxəsrlik müstəqillik mübarizəsinin təsdiqi

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən tarixi iclasında Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi. Bu tarixi sənəd türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılmasından xəbər verirdi. Həmçinin bu Bəyannamə tək bir müstəqil respublikanın yaradılması haqqında sənəd deyil, həmçinin tarixi yüzilliklərə söykənən, bu yüzilliklər ərzində dünyada dövlət quruculuğu tarixinə 40-dan çox dövlət verən bir xalqın mübarizliyinin, azadlıq duyğularının, qədim mədəniyyətinin, humanistliyinin, multikulturallığının təcəssümü idi. Bu Bəyannaməni qəbul edən dövlət özündən əvvəlkilərdən zaman, məkan, şərait, milli və müstəqillik, həm də demokratik baxımdan fərqlənən Azərbaycan Xalq Cümhuriyyəti idi. Bu dövlət mahiyyət etibarilə milli, demokratik bir dövlət olmaqla Şərq aləmində ilk avropatipli, sivil qanunlarla idarə olunan bir dövlət idi. Siyasi quruluşu dövrün tələblərinə cavab verdiyindən təqib və təzyiqlərə baxmayaraq, o, tezliklə aparıcı dünya dövlətləri tərəfindən tanınmışdı.

## Müstəqilliyimizin məhvinə uzanan əllər olmasaydı...

Tarixdə həmişə mübariz və qəhrəman xalqlar yaşayırlar. Həmin xalqlar isə tarix yaradır və onun səhifələrinə şərəf salnaməsi yazırlar. Belə qəhrəman xalqlardan biri də Azərbaycan xalqıdır. Azərbaycan Xalq Cümhuriyyəti bu xalqın yaratdığı tarix, onun 23 aylıq gərgin, çətin bir şəraitində fəaliyyəti isə həmin tarixin şərəf səhifələridir. O dövrün çətinlikləri - kənardan uzanan əllər, müdaxilələr, təxribatlar, təzyiqlər olmasaydı, bu il təkcə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından deyil, 1918-ci ildə qazandığımız müstəqilliyimizdən də 107 il ötəcəkdi.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı yaranan çətinlikləri təhlil edən Ümummilli Lider Heydər Əliyev deyirdi: "Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz normal fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Rusiyadakı bolşevik hökuməti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək, Azərbaycanda istilaçılıq hərəkətlərinə başlamışdı. Respublikanın daxilində o cəhdləri dəstəkləyən qüvvələr azərbaycanlı olmamışlar. Eyni zamanda, Cümhuriyyətin hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər, çəkişmələr onun süqut etməsinə gətirib çıxarmışdır".

Tarixçi alimlər qeyd edirlər ki, XX əsrin əvvəllərində, dəqiq desək, cümhuriyyətin qurulmasından başlayaraq onun süqutunadək erməni silahlı birləşmələri Qarabağda, Naxçıvanda, Zəngəzurda dayanmadan Azərbaycan kəndlərini təhdid edirdilər. Qarabağda hər an üsyanlar qaldırırdılar. Yeri gəlmişkən, qeyd edək ki, 1919-cu ilin fevral ayında Qarabağ General-Qubernatorluğu da yaradılmışdı və Xosrov Paşa bəy Sultanov Qarabağ general-qubernatoru təyin olunmuşdu. O, Qarabağda ermənilərin avantürist planlarının qarşısının alınmasında çox mühüm işlər gördü. Lakin erməni və rus təxribatçılarının nəyin bahasına olursa-olsun, cümhuriyyətin məhv edilməsi haqqındakı planları qarşısında bu müstəqillik davam edə bilmədi və cəmi 23 ay yaşayan türk-müsəlman dünyasının ilk demokratik respublikası düşmən qüvvələrin təsiri ilə 1920-ci ilin 27 aprelində iflasa uğradı. Xalq yenidən 70 il müstəmləkə rejimində yaşamaq məcburiyyətində qaldı. 70 ili də beləcə ötən XX əsr, ümumilikdə, tariximizin ən keşməkeşli səhifələrini təşkil edən bir yüzillik kimi tarixə yazıldı. 1991-ci ildə isə müstəqilliyimiz bərpa olunan respublikamızda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dalğalanmağa başladı.

## 1991-ci ildə yenidən əldə etdiyimiz müstəqilliyimiz Ümummilli Lider Heydər Əliyevin sayəsində əbədilik qazandı

Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə müstəqil dövlətimizin təməli möhkəmləndirildi, müstəqilliyimiz əbədilik qazandı. Ulu Öndərin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ümummilli Liderimiz tərəfindən milli dövlət strukturlarının yaradılması gündəmə gətirildi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə muxtar respublikanın Dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi haqqında vəsatət qaldırdı. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq bayrağın Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Azərbaycanın yeni Dövlət gerbinin hazırlanması və təsdiqi məsələsinə də 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində baxıldı. Üçrəngli milli bayrağın bərpası və qəbulu ilə yanaşı, Dövlət gerbi və Dövlət himninin qəbul edilməsi üçün müsabiqə elan olunması qərara alındı. Bu məsələləri kompleks halda həll etmək üçün Azərbaycan Respublikasının Ali Sovetinə müraciət olundu. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözlərinin çıxarılması və digər tarixi qərarlar da müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur. Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!" fikri indi dünya dövlətləri sırasında günbəgün mövqeyini gücləndirən müstəqil Azərbaycanın simasında bir daha öz təsdiqini tapır. Bu gün də müstəqil Azərbaycanımız etibarlı əllərdədir. Azərbaycan xalqı çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır.

## Müstəqilliyi qorumaq onu əldə etməkdən dəfələrlə çətin imiş

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdiklərimiz canlandıqca, düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonra yaranan vəziyyətlə tanış olduqda, ona uzanan əlləri, gözügötürməyənlərin təxribatlarını görəndə isə belə bir qənaətə gəlmək olur ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Hər birimizə məlumdur, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Ümummilli Liderimiz Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyətimizin taleyinə bənzəyəcəkdi. Məhz Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi.

Artıq müstəqilliyimizin bərpasından 34 il ötür. Ötən bu dövrdə ölkəmizdə 100 ilə bərabər işlər görülüb. 2020-ci ildə əldə etdiyimiz Qarabağ Zəfəri isə bu işlərin nəticəsi oldu. Bəli, biz Qələbə qazandıq. 1990-cı illərin Birinci Vətən müharibəsi nə zamansa İkinci Vətən müharibəsinin olacağına şübhə yeri qoymamışdı. Xalq bir gün öz əzəli torpaqlarını geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin bərpasının ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirildiyini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə-Qarabağına, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi.

10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə ilə tarixə düşdü. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız, Ağdamımız, Kəlbəcərimiz, Laçınımız erməni tapdağından xilas edildi, hüriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi. Böyük Zəfər ərazi bütövlüyümüzün bərpasını reallaşdırdı. Deməli, müstəqilliyi qorumaq, həqiqətən də onu qazanmaqdan qat-qat çətin imiş.

Müstəqilliyimizin yaşı artdıqca, ölkəmizin inkişafı daha da sürətlənəcək. Və gün o gün olacaq ki, müstəqilliyimizin 50, 100 illik yubileylərini qeyd edəcəyik. Həmin dövrlərdə insanlar qürurla müstəqilliyimizdən, 30 ildən sonra ərazi bütövlüyümüzü bərpa etməyimizdən, bu xalqın böyük şəxsiyyətlərindən bəhs edəcəklər. İstiqlaliyyətimizin sübhü olan müstəqillik tariximizin başlanğıcı-28 May hələ neçə-neçə əsrlərə öz işığını salacaq, ölkəmizi inkişafdan, insanların rufahından doğan nura boyayacaqdır. Çünki əbədidir və əbədi olacaq.

***Mətanət Məmmədova***

# “Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar”

***Mayın 27-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, YAP Quba rayon təşkilatının və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 28 May - Müstəqillik Günü münasibətilə ”Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar” mövzusunda tədbir keçirilib. Əvvəlcə Quba şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.***

Quba rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova bildirib ki, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətini üzvi şəkildə birləşdirən yeni dövlət modeli idi. Bu nümunəvi model sonralar dövlət müstəqilliyi əldə etmiş digər cümhuriyyətlər üçün də örnək oldu.








Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov isə çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə mühüm yer tutduğunu vurğulayıb. O, xalqımızın o dövrdə çətin sınaqlarla üz-üzə qaldığını, müstəqilliyə gedən yolda böyük faciələrlə üzləşdiyini diqqətə çatdırıb:





”1918-ci ilin mart ayında Qubada və digər bölgələrdə erməni daşnakları tərəfindən törədilən qətliamlar bunun göstəricisidir. Bu gün Quba Soyqırımı Memorial Kompleksi tarixi həqiqətləri özündə ifadə edir”.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında deyib ki, Azərbaycan tarixinin şanlı səhifələrindən olan və müasir dövlətçilik tariximizdə önəmli yer tutan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin milli dövlətçilik ənənələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Xalq Cümhuriyyəti özünün dövlətçilik əsasları və demokratik islahatları ilə müsəlman Şərqinin mayakı rolunu oynamağı bacardı.

Cümhuriyyətin Azərbaycanın dövlətçilik tarixindəki rolunun daim xatırlandığını, Cümhuriyyət rəhbərlərinin xatirəsinin əziz tutulduğunu diqqətə çatdıran A.Rəhimzadə deyib: ”Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin məhz 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını dəfələrlə ifadə edib. Eyni zamanda, Prezident İlham Əliyevin imzaladığı Sərəncamlara əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edilməsi, 2018-ci ilin ”Azərbaycan Xalq Cümhuriyyəti İli” elan olunması milli dövlətçilik tariximizə göstərilən diqqət və qayğının bariz nümunəsidir”.



YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və reallıqlarına uyğun davam etdirilir.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə isə bildirib ki, 28 May Azərbaycan tarixinin əzəmətli günlərindəndir: ”Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin mühüm dövrlərindən biri XIX əsrin sonu - XX əsrin əvvəlləridir. Bu dövrdə ölkəmizin ziyalıları bütün imkanlardan istifadə edərək Azərbaycan xalqının milli mənlik şüurunu oyanması, maariflənməsi üçün mübarizə aparıblar”.

D.Seyidzadə Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə həyata keçirilən bir sıra mühüm tədbirlər, qəbul edilən qanunlar, Cümhuriyyət qurucularının siyasi fəaliyyəti barədə ətraflı məlumat verib, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin tam həyata keçirə bilmədiyi müstəqillik arzularının Ulu Öndər Heydər Əliyev və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən gerçəkləşdirildiyini diqqətə çatdırıb: ”Ulu Öndər Heydər Əliyev müstəqilliyimizi əbədi və sarsılmaz edib. Prezident İlham Əliyev isə ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etməklə adını milli tariximizə qızıl hərflərlə yazdırıb. Gənclərimizin üzərinə düşən əsas vəzifə isə Ulu Öndər Heydər Əliyev irsini dərindən öyrənmək, Prezident İlham Əliyevin siyasətini dəstəkləmək və müstəqil dövlətimizi daim qorumaqdır”.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Daha sonra YAP sıralarına yeni qəbul olunan üzvlərə partiya vəsiqələri təqdim olunub. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Makron arvadı Bricitdən aldığı şillənin səbəbini açıqlayıb



**...Fransa prezidenti Emmanuel Makron arvadı Bricitdən aldığı ”usta şilləsi”nin səbəbini açıqlayıb. SİA xəbər verir ki, bu barədə TASS məlumat yayıb. Makron bildirib ki, o və həyat yoldaşı təyyarədə ”sadəcə axmaqlıq ediblər”. O, həmçinin əlavə edib ki, o və Bricit tez-tez oxşar bir şey edirlər. Bundan əlavə, Fransa prezidenti şillənin kameraya düşməsindən sonra ictimaiyyətin reaksiyasından təəccübləndiyini bildirib.**

O, onlarda hansısa məna tapmaq cəhdlərini bu yaxınlarda baş vermiş oxşar vəziyyətlə müqayisə edib - sonra media Makronun masadan salfet çıxardığı videonu müzakirə edib. Bəzi nəşrlərə görə, salfetin tərkibində narkotik ola bilər. ...Həyat yoldaşım və mən onunla tez-tez etdiyimiz kimi sadəcə aldadılırdıq, başqa heç nə yoxdur. Bunu planet miqyasında bir növ fəlakətə çevriblər və bu fəlakət ətrafında hətta nəzəriyyələr də qururlar. Bir dəstə dəli adam bu videolar üçün izahat verməklə vaxt itirir. Xatırladaq ki, daha əvvəl cütlük Vyetnamda təyyarədən çıxarkən Makron arvadı tərəfindən sillələnib.

*Əli Babayev*

# Azərbaycan Xalq Cümhuriyyətinin təhsilə töhfəsi

***Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il yanvar a)ının 30-da "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Sərəncamı Cümhuriyyətin çoxsahəli fəaliyyətinə verilən ən yüksək qiymətdir. Ulu öndər Heydər Əliyev qeyd edərək demişdir: "Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərsə də, az yaşasa da xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın XIX əsrin sonu XX əsrin əvvəllərində milli müstəqillik və azadlıq duyğulan ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, ziyalıları, xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş əhval-ruhiyyəsini yaymışdır. Bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".***



*Soltanəli Qurbanov*
*Səbail YAP "Üzeyir Hacıbəyov - 68" ƏPT-nin sədri*
*ADPU-nun dosenti*




Dövlət başçımız Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyəti tarixini, ədəbiyyatının, mədəniyyətinin araşdırılmasının vacibliyini istər çıxış və nitqlərində, istərsə də verdiyi müvafiq sərəncamlarında dəfələrlə xüsusi olaraq vurğulanıb.

Cənab Prezidentimizin Azərbaycan Xalq Cümhuriyyətinin 90 və 100 illik yubileyləri haqqında verdiyi məlum sərəncamları ilə bərabər, Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdə tutduğu yerə və liderlərinə verdiyi böyük qiymətin bariz nümunələrindən biri də Bakıda "İstiqlal Bəyannaməsi" abidəsinin ucaldılması, Azərbaycanın üçrəngli bayrağının şərəfinə Dövlət Bayraq Meydanının inşası və bu meydanda dalğalanan bayrağımızın dünyanın ən uca bayrağı olmasıdır. Ulu Öndərin layiqli davamçısı Prezidentimiz İlham Əliyev 2018-ci il yanvar ayının 10-da verdiyi sərəncamla 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etmişdir.

Zaqafqaziya Seyminin dağılmasından və meydana gəlmiş konkret tarixi şəraitdən istifadə etmək orada olan Azərbaycan nümayəndələri 1918-ci il mayın 27-də Azərbaycanın istiqlalını elan etdilər. Beləliklə, birinci Türk dövləti yaradıldı. Həmin il may ayının 30-da Tiflis şəhərində ilk respublikanın ilk hökuməti - Fətəli Xan Xoyskinin başçılığı altında Kabinet yaradıldı. Azərbaycan hökuməti ilk gündən geniş tədbirlər həyata keçirməyə başlamışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 30 iyun 1918-ci il tarixli qərarına əsasən Gəncədə Xalq Maarif Nazirliyinin dəftərxanası təşkil edildi, xalq maarifinin inkişafına çox böyük və mühüm təkan verən ilk tədbirlərdən biri türk dilinin dövlət dili elan edilməsi idi. Bu 1918-ci il 27 iyun tarixli qərara əsasən elan edildi. Bunlardan sonra Cümhuriyyət hökuməti milli kadrların yetişdirilməsinə bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verdi.

Məktəblər milliləşdirildi. Azərbaycan Hökuməti mn 28 avqust 1918-ci il tarixli qərarına əsasən, bütün ibudai təhsil müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalıdır. Dövlət dili olan Azərbaycan dilinin tədrisi icbarı surətdə həyata keçirilməlidir. Təhsilin, maarif sisteminin milliləşməsi müəllim kadrlarının çatışmaması çətinliyi yaradırdı. Müəllimə olan ehtiyacı ödəmək uçun 1918-ci ildə Gəncə. Şəki, Zaqatalada qısamüddətli pedaqoji kurslar təşkil edildi və Xalq Maarif Nazirliyi Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müstəqil seminariya kimi Qazağa köçürülməsi haqqında qərar qəbul etdi.

1919-cu ilin əvvəllərində Azərbaycanda 23 orta məktəb var idi. Bakı, Gəncə və Qazaxda müəllim seminariyaları, Bakı, Gəncə və Şəkidə "Müqəddəs Nina" qadın məktəbini, Bakıda Politexnik və ticarət məktəbləri fəaliyyət göstərirdilər. Lənkəran qəzası 1919-cu ilin iyulunda Azərbaycan Xalq Cümhuriyyəti hökumətə tabe edildikdən sonra sentyabrda kişi və qadm gimnaziyaları fəaliyyətə başladı. Azərbaycan hökuməti ölkədə təhsili daha da genişləndirmək məqsədilə 1919-cu ilin yayında qısa müddətli pedaqoji kurslar açdı. Belə kurslar kişi və qadınlar Bakı, Gəncə, Şəkidə, kişilər üçün Şuşa, Qazax, Qusar, Salyan və Zaqatalada açılmışdı. 1919-cu ildə 50 nəfər müəllim Türkiyədən gəlib müəllimlik fəaliyyətinə başlamışdılar.

Tədris müəssisələrini lazımi vəsait və ədəbiyyatla təmin etmək həyata keçirilən mühüm islahatlardan biri idi. Xalq Maarif Nazirliyi Azərbaycan dilində dərsliklərin yazılması və nəşri üçün komissiya təşkil etmişdi. Türkiyədən də dərslik və dərs vəsaiti almışdı.

Azərbaycan Xalq Cümhuriyyəti milli kadrların hazırlanmasını tezləşdirmək üçün Xalq Maarifi Nazirliyinin qarşısında ali məktəblər yaratmağı tapşırır. Lakin o dövrdəki tarixi şərait yalnız Bakı Dövlət Universitetinin açılmasına imkan verir. Universiteti professor-müəllim heyətilə təmin etmək üçün tanınmış alimlər dəvət olunur.

Universitetdə Məhəmməd Əmin Rəsulzadə Osmanlı ədəbiyyatı tarixini, Mirzə Rəhim Mirzəyev türk dilini, R.Kaplanov Osmanlı ədəbiyyat tarixini tədris edirdilər. Azərbaycanda ali təhsil sisteminin yaradılması və inkişafında böyük rolu olan tibb elmi sahəsində tanınmış alim, cərrah Vasili İvanoviç Razumovşki universitetin ilk rektoru olmuşdur.

Ölkədə savadsızlığın ləğv edilməsi üçün bir çox şəhərlərdə - Bakı, Şuşa, Şəki, Zaqatala və Qazaxda yaşlı əhali üçün kurslar açılmışdı. Eyni zamanda Bakıda parlamentin üzvü Abdulla bəy Əfəndiyevin rəhbərliyi ilə ibtidai məktəb müəllimləri üçün xüsusi kurslar aşılmışdı. Bu kurslarda pedaqogika, Azərbaycan dilinin tədrisi metodikası öyrənilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin mədəni-maarif sahəsindəki qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iş buraxmışdır.

# "Azərbaycan Türkiyə və Orta Asiya ölkələri arasında körpü rolunu oynayır"




"Azərbaycan Prezidentinin Macarıstana səfəri və Türk Dövlətləri Təşkilatının liderlərinin qeyri-rəsmi Zirvə toplantısında iştirakı əhəmiyyətli bir hadisə kimi dəyərləndirilməlidir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Oqtay Qasımov deyib. O bildirib ki, nəzərə alsaq ki, Türk Dövlətləri Təşkilatı son illərdə daha da inkişaf edərək üzv ölkələr arasında inteqrasiyanı gücləndirən mühüm regional platformaya çevrilməkdədir: "Təşkilatın yaradılmasından bu günə qədər keçən 16 il ərzində nəzərəçarpacaq dərəcədə irəliləyiş əldə olunub. Toplantı çərçivəsində Azərbaycan Prezidenti geniş çıxış edərək müxtəlif istiqamətlərdə mühüm məsələlərə toxundu. İlk olaraq Azərbaycan-Macarıstan əlaqələrindən bəhs edən Prezident, bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və hər il daha da möhkəmləndiyini vurğuladı. Eyni zamanda, Türk Dövlətləri Təşkilatının fəaliyyəti, Azərbaycanın bu təşkilata verdiyi töhfələr və gələcək perspektivlər barədə ətraflı məlumat verdi.

Qeyd olundu ki, Azərbaycan Türkiyə və Orta Asiya ölkələri arasında bir körpü rolunu oynayır. Orta Dəhlizin əsas hissəsi məhz Azərbaycanın ərazisindən keçir. Bu kontekstdə Azərbaycanın logistik sahədə atdığı mühüm addımlar sadalandı. Bildirildi ki, Bakı-Tbilisi-Qars dəmir yolunun daşımalar üzrə gücü 1 milyon tondan 5 milyon tona çatdırılıb. Ələt Beynəlxalq Dəniz Limanının yükötürmə qabiliyyəti isə 15 milyon tondan 25 milyon tona qədər artırılacaq. Ümumilikdə, Azərbaycan ərazisindən keçməklə Orta Asiyadan Türkiyəyə daşınan yüklərin həcmi artıq 10 milyon tonu ötüb. Bu isə regional nəqliyyat və ticarət baxımından ciddi göstəricidir".

"Azərbaycan Prezidenti eyni zamanda Türk Dövlətləri Təşkilatının növbəti Zirvə toplantısının bu il Azərbaycanda keçiriləcəyini və bununla bağlı dövlət başçılarını ölkəyə dəvət etdiyini bildirdi. COP29 konfransına hazırlıq məsələləri də gündəmdə idi və Azərbaycanın bu mötəbər tədbirə uğurla ev sahibliyi edəcəyi qeyd olundu.

Toplantıda qəbul edilən mühüm qərarlardan biri də Novruz bayramının Türk Dövlətləri Təşkilatına üzv bütün ölkələrdə ortaq milli bayram kimi qeyd olunması oldu. Bu, ortaq mədəniyyət və dəyərlərin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətli addımdır. Bütün bu məsələlər və irəli sürülən təşəbbüslər bir daha göstərir ki, Azərbaycanın həm regionda, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində rolu getdikcə güclənir və strateji əhəmiyyət kəsb edir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "İnsident həmişə piyada məsuliyyətsizliyi və sürücü diqqətsizliyindən baş verir"

**"Piyadaların iştirakı ilə baş verən qəzalarda həmişə sürücü günahkar deyil". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Yasin Mustafayev deyib.**



O bildirib ki, piyadalar üçün nəzərdə tutulmuş yerdən keçməyəndə sürücü də həmin piyadaya diqqət etmədikdə qəza baş verir: "Ümumiyyətlə, piyadalarla sürücülərin insidenti həmişə piyada məsuliyyətsizliyindən və sürücü diqqətsizliyindən baş verir. Əsasən bu iki halda yaranır. Piyada müəyyən olunmuş yerdən keçmir, müəyyən olunmuş yerdən keçərkən də düzgün keçmir. Ya da çox yavaş və qaçaraq keçir. Bunlar hamısı insident yaradan məsələlərdir. Amma əgər göz görəcək məsafədə piyada keçidi yoxdursa, o yolu piyada diqqətlə keçməlidir. Qanunvericilikdə bunu göstərir. Piyada yolu bu zaman ehtiyatla keçməlidir.

Sürücü də piyadanı görübsə, piyada keçidi yoxdur deyə, üstünə sürməli deyil. Yəni burada incə məqamlar var. Bunların hamısını nəzərə almaq lazımdır ki, insident, qəza baş verməsin. İnsan həyatıdır, istər sürücü, istər piyada üçün çətindir. Sürücü məsuliyyət daşıyır, piyada həlak olur, xəsarət alır. Bunlar hamısı xoşagəlməz hallardır. Buna görə də, maarifləndirici hallar üstünlük təşkil edir. Sürücülər səbirli olmağı, qaydalara ciddi şəkildə əməl etməyi, eyni zamanda da piyadalar da qanunun tələb etdiyi şəkildə, yol hərəkəti qaydalarına əməl etməyi bacarmalıdır. Piyadadır deyə yol hərəkəti qaydalarını bilməməlidir deyə, bir şey yoxdur. Bilməlidir ki, yolu haradan və necə keçə bilər. Bunlar hamısı vacib şərtlərdəndir".

***Söylü***



**Elçin Bayramlı**

# Xeyr, bu artıq toy deyil, nədirsə, başqa şeydir

***Bu gün ailə qurulmasını qeyd etmək üçün keçirilən mərasimlərə "toy" demək düzgün deyil. Bu mərasimlərin Azərbaycan toyu ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Rahatca demək olar ki Azərbaycanın milli toy ənənəsi ləğv edilmiş, onun yerinə eybəcər bir "müasir" mərasim növü qoyulmuşdur. Ona görə də, buna başqa bir ad tapmaq lazımdır. Çünki, hazırda toy adı ilə keçirilən mərasim konkret olaraq toy deyil, bu, sadəcə olaraq, çox biabırçı bir şou və əyləncə mərasimidir.***

Hazırki mərasim forması 21-ci əsrin əvvəlindən başlayaraq tətbiq olunur və və getdikcə də eybəcərləşir. Hədsiz hoqqabazlıqlar, müxtəlif dəbdəbə, görməmişlik elementləri, özünü göstərmək meyli, dəhşətli israfçılıq və saysız-hesabsız oyunbazlıqlardan ibarət qəribə bir məclisdir. Bunun nə tarixi əsası var, nə mənəvi, nə sosial, nə də milli dəyəri.

Qədimdən bəri bizim toy mərasimlərimiz çox sadə və təbii təşkil olunan el şənliyi formasında, mədəni çərçivədə baş tuturdu. Sovet dövründə də toylarımız çox sadə, normal və mədəni şəkildə keçirilirdi.

Amma indiki "toy" adlandırılan mərasimlər Azərbaycanın milli-mənəvi irsinə, mədəniyyətinə və milli dəyərlərinə heç bir aidiyyəti olmayan əyləncə və yeyib-içmək mərasimidir. Bu, dəhşətli və dünyada analoqu olmayan bir mərasimdir.

Əslində toy mərasimi, ailənin qurulmasının yaxın adamlarla birlikdə qeyd olunması deməkdir. Lakin bugünkü mərasimlərdə ailə məsələsi kölgədə qalır, tamam başqa mövzular ön plana çıxır.Ön planda insanların dəbdəbə nümayiş etdirməsi, 50 cür qida məhsulunu mədəyə dolduruması və sarsıdıcı dərəcədə yüksək səslə əcaib mahnılara atılıb düşməkdir.

Toy mərasimi yalnız yaxın qohumların və dostların iştirakı ilə keçirilə bilər. Burada nikah mərasimi təşkil olunmalı, yeni ailəyə təbriklər və arzular deyilməli, yüngülvari yemək-içmək, musiqi və oynamaq da normal qaydada baş tuta bilər.

Qalan bütün hoqqabazlıqlar isə toya heç bir aidiyyəti olmayan, sadəcə əyləncə məqsədli, süni və qeyri-milli şou tədbirlərdir. Son dövrlər toylarımızda milli mahnılara demək olar ki, rast gəlinmir. Hətta "Vağzalı" belə dəyişdirilib. Onların yerini xarici mahnılar, küçə musiqiləri və müxtəlif bayağı mahnılar tutub. Bunlarla yanaşı, saysız-hesabsız hoqqabazlıqlar müşahidə olunur.

Bu gün keçirilən toy mərasimləri, əslində, böyük bir biznes strukturuna çevrilib. Məqsəd yalnız toy sahibini daha çox pul xərcləməyə vadar etməkdir. Nəticədə bir çox ailələr borca, sələmə düşür və maddi baxımdan ağır vəziyyətlər yaşayırlar.

Maraqlıdır ki, dəbdəbəli və şou xarakterli toyların əksəriyyəti sonradan boşanma ilə nəticələnir. Halbuki sadə və səmimi keçirilən mərasimlər uzunömürlü və möhkəm ailələrin təməlini qoyur. Bu, mənim şəxsi müşahidəmdir və bunu dəfələrlə görmüşəm.

Normal toy, dünyanın əksər ölkələrində olduğu kimi, bizdə də sadə, mənalı və ailə dəyərlərinə əsaslanan formada təşkil olunmalıdır. Maksimum 100 nəfərin iştirakı ilə, yaxın qohumlar və dostların arasına gəldiyi, səmimi, təbii bir mərasim olmalıdır. Bəylə gəlin təbrik edilir, ürək sözləri deyilir, həzin musiqi səslənir, yüngül qəlyanaltılar verilir və mərasim 2-3 saat ərzində yekunlaşır.

İnsanlar ailə qurarkən maddi deyil, mənəvi dəyərlərə üstünlük verməlidirlər. Maddi zənginlik nümayiş etdirmək, özünü başqalarına göstərmək, çoxlu pul xərcləyib diqqət çəkməyə çalışmaq ailəyə heç bir fayda vermir- əksinə, zərər vurur, xüsusilə də maddi baxımdan.

Bu gün toy mərasimləri əsasən musiqi, dekorasiya, foto-video çəkiliş və iaşə sahələrində xidmət göstərən sahibkarlar üçün gəlir mənbəyinə çevrilib. Qazananlar yalnız onlardır, amma ailə bu dəbdəbənin yükünü uzun illər boyu daşımaq məcburiyyətində qalır. Üstəlik, bu məclislərdə yüksək səsli musiqi ilə sanki bir növ "akustik terror" yaradılır, insanların beyin hüceyrələri məhv edilir. 50-60 növ yemək, üçmərtəbəli süfrələr, saysız-hesabsız israfçılıq həm sosial, həm mənəvi baxımdan qəbuledilməzdir.

Çox mənfi bir tendensiya formalaşıb. Bəzi insanlar bunu dəb halına gətirir və getdikcə daha da cızığından çıxır. Toy mərasimləri günbəgün daha şişirdilmiş və ifrat xərcli xarakter alır. Artıq vəziyyət o həddə çatıb ki, gənclər evlənməkdən çəkinir- çünki bir toyun xərci 30-50 min manata qədər yüksəlir. Bu isə əhalinin böyük əksəriyyəti- yəni təxminən 80 faizi üçün əlçatmazdır.

Nəticədə, bu hal evliliklərin qarşısını alır. Borc götürüb toy edən cütlüklər uzun illər kredit ödəməyə məcbur qalır. Bu da ailə daxilində narazılıqlara, maddi və mənəvi problemlərə gətirib çıxarır. Belə olan halda toy, ailənin təməlini qoymaq əvəzinə, ona zərər vermiş olur.

Bütün bu amillər nəticə etibarilə Azərbaycan toy ənənəsini və toy mədəniyyətini ciddi şəkildə zədələyib. Normal yanaşma odur ki, insanlar ailə qurarkən sadəcə nikah bağlayıb, yaxın ətrafın iştirakı ilə sadə və səmimi bir mərasim keçirsinlər. Dəbdəbədən uzaq, minimum maddi xərclə, bahalı cehiz və ləvazimatsız, təbii şəkildə həyatlarına başlasınlar. Əslində, bu, sağlam düşüncəli insanların seçimi olmalıdır. Ən əsası itirdiyimiz milli Azərbaycan toyunu geri qaytarmalı, bu müasir biabırçılığa son qoymalıyıq.

# "İdmanın inkişafı xalqın sağlamlığıdır"



Azərbaycanın beynəlxalq tədbirlər məkanı statusuna layiq görülməsi təsadüfi deyil. Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanan ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara ev sahibliyi etməsi ölkəmizin elmə, təhsilə, mədəniyyətə, idmana və digər sahələrə olan diqqəti ilə yanaşı, bu və ya digər sahələrdə qazanmış olduğu uğur və nailiyyətlərin təsdiqidir. Azərbaycanda NATO Parlament Assambleyasının seminarı, Bakı Beynəlxalq Humanitar, Gənclər siyasəti üzrə I Qlobal forumu, Caz Festivalı, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi mühüm əhəmiyyət kəsb edən müxtəlif məzmunlu tədbirləri təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi, yüksək imici səbəb olmuşdur. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan təşkilatçılıq, təhlükəsizlik, iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlərin yüksək səviyyədə təşkili öz həllini tapır. Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Prezident İlham Əliyevin dediyi kimi: "İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir".

Təbii ki, Azərbaycanın dinamik inkişafı nəticəsində əldə olunan uğurlar onun bütün istiqamətləri üzrə modelini ortaya qoymasına səbəb olmuşdur. Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın "İdman Paytaxtı" seçməsi təsadüfü hal deyil. Azərbaycanda əhalinin sağlamlığının möhkəmləndirilməsi, yüksək standartlara uyğun mövcud idman infrastrukturu və idmanın təbliği üçün görülən nümunəvi fəaliyyət yüksək qiymətləndirilib. İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb.

## "İDMANIN KÜTLƏVİLİYİNİ TƏMİN EDƏRƏK BİZ XALQIMIZIN SAĞLAMLIĞINI QORUYACAĞIQ"

Kütləvi olaraq idman sahəsinə axın var. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulayıb ki, idmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq - həm fiziki cəhətdən, həm mənəvi baxımdan: "Çünki fiziki cəhətdən güclü insan adətən öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır".

Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir.

Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu.

## AZƏRBAYCANDA İDMAN İNFRASTRUKTURU

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub. Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. "Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm", - deyə Azərbaycan Prezidenti bildirib. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir.

## DÜNYANIN İDMAN İCTİMAİYYƏTİNİN DİQQƏTİNİ ÇƏKƏN AZƏRBAYCAN

Ölkəmiz keçirilən bütün beynəlxalq idman yarışlarına tam hazır vəziyyətdədir. Belə yarışların keçirilməsi və idmançılarımızın bu və ya digər yarışlarda qalib olması onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. Müasir dövrümüzdə mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Digər tərəfdən, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı idman yarışlarına ev sahibliyi edir. Bu gün ölkəmizdə Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Atletlər kəndi və bir sıra idman qurğuları var.

Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxtBakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Son illərdə dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. Dünyaya əminliklə bəyan etdiyi gücünü, qüdrətini və təhlükəsizlik tədbirlərinə cavabdehliyini göstərib. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. uğurla keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət kimi idman tariximizə həkk olundu. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixiləşdi. İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri də yaddaqalan oldu. Bu idman, dostluq və qardaşlıq bayramına çevrilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldü. "Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bütün bu uğurlar onu göstərir ki, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Məhz bu diqqət və qayğı Azərbaycanın qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir. Keçirilən mötəbər tədbirlərin davamı olaraq Gəncə şəhərində Üçüncü MDB Oyunları təşkil olunacaqdır. 7000 iştirakçı, onların komandaları, heyətlərini qəbul etmək şərait yaradılır. Qədim şəhərimiz Gəncə belə bir tədbirə ev sahibliyi edəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Bakcell" regionun ən nüfuzlu innovasiya sammitinin tərəfdaşı olacaq

İnnovasiya və sürət lideri "Bakcell" regionun ən nüfuzlu innovasiya tədbiri -"INMerge" Sammitinin tərəfdaşı olacaq. Sammit çərçivəsində "Bakcell"in dəstəyi ilə baş tutacaq "Telco 2 Techco" panel müzakirəsində şirkətin baş icraçı direktoru Klaus Müller çıxış edəcək. Tədbirdə qlobal texnologiya və telekommunikasiya şirkətlərinin nümayəndələrinin iştirakı nəzərdə tutulur. Panel müzakirəsi zamanı dəyişən dünyada baş verən çağırışlar, telekommunikasiya sənayesindən texnologiya sənayesinə keçid, son dövr yenilikləri, süni intellekt əsaslı məhsul və xidmətlərlə bağlı müzakirələr aparılacaq.




"Bakcell" innovasiya və süni intellekt əsaslı həllərlə Azərbaycanın rəqəmsal transformasiyası və texnologiya ekosisteminin inkişafında yaxından iştirak edir. Bu həllər şirkətin həm əməliyyat proseslərində, həm də "Bakcell"in müştərilərinə təqdim etdiyi gündəlik məhsul və xidmətlərində öz əksini tapır. Eyni zamanda, şirkətin dayanıqlı inkişaf və korporativ sosial məsuliyyət strategiyası çərçivəsində innovasiyalar və süni intellekt ilə bağlı geniş, əhatəli fəaliyyət planı həyata keçirilir.

"Paşa Holding" tərəfindən29-30 sentyabr tarixlərində təşkil olunacaq"INMerge" Sammiti Cənubi Qafqaz və Mərkəzi Asiyada innovasiya, texnologiya və sahibkarlıq sahələrində liderləri, startapları, investorları və dövlət nümayəndələrini bir araya gətirən ən mühüm texnoloji tədbirdir. Builki "INMerge" Sammitində 5000-dən çox iştirakçı, 150-dən artıq spiker və 100-dən çox startapın iştirakı nəzərdə tutulur. Sammit zamanı iştirakçılar ən son trendlər, süni intellekt, data analitika, kibertəhlükəsizlik və digər aktual mövzular üzrə fikir mübadiləsi aparacaq, eləcə də qlobal əməkdaşlıq imkanlarını müzakirə etmək imkanı əldə edəcəklər.

# Uğurlu vasitəçi

## *Türkiyənin XİN başçısı Hakan Fidan Moskvaya nə təklif edib?*



***Türkiyənin xarici işlər naziri Hakan Fidan Moskvaya səfərinə mayın 26-da başlayıb. O, xüsusilə Rusiya prezidentinin köməkçisi Vladimir Medinski ilə, axşam isə Vladimir Putinin özü ilə görüşüb. Səfər zamanı əsas müzakirə mövzularından biri Ukrayna nizamlanması olub. 2022-ci ildən bəri nizamlanma çərçivəsində məsləhətləşmələrin ilk raundu mayın 16-da İstanbulda baş tutub və bu, Moskva ilə Kiyevə "1000-ə 1000" düsturuna əsasən münaqişədən sonra ən böyük məhbus mübadiləsini həyata keçirməyə imkan verib. Hazırda danışıqların yeni raundunun harada keçiriləcəyi ilə bağlı müzakirələr gedir. Türkiyə prezident administrasiyasındakı kommunikasiyalar şöbəsinə yaxın mənbənin verdiyi məlumata görə, Ankara bu cür görüşləri İstanbulda keçirmək hüququnu özündə saxlamaq istəyir.***

Hakan Fidan rusiyalı həmkarı Sergey Lavrovun dəvəti ilə mayın 26-da Rusiyaya iki günlük səfərə başlayıb. Onu Moskvada ilk qəbul edən Rusiya prezidentinin köməkçisi Vladimir Medinski olub. O, bu yaxınlarda İstanbulda Ukrayna tərəfi ilə danışıqlarda Rusiya nümayəndə heyətinə başçılıq edib. Söhbət danışıqlar prosesinin davam etdirilməsinə həsr olunub. Axşam isə Vladimir Putinlə görüş oldu. Görüşdə Sergey Lavrov və Türkiyənin Rusiyadakı səfiri Tanju Bilgiç də iştirak ediblər.

Türkiyə prezident administrasiyasındakı kommunikasiyalar departamentinə yaxın mənbə bildirib: "Rəsmi olaraq, Fidanın səfərinin gündəliyi sadəcə Ukrayna ətrafında vasitəçilikdən kənara çıxır və iqtisadiyyat və Yaxın Şərq regionu ilə bağlı məsələləri əhatə edir". Onun sözlərinə görə, Suriya Ankaranı narahat edən məsələlərdən heç də az deyil. "Eyni zamanda, aydındır ki, Türkiyə Ukrayna üzrə ən çətin danışıqlar üçün platformanı monopoliyaya almaq istəyir", - mənbə bildirib. Bu rol Ankaraya təkcə öz siyasi kapitalını artırmağa deyil, həm də Rusiyaya qarşı tətbiq edilən "sanksiya məhdudiyyətləri vəziyyətində uğurlu manevr etməyə" imkan verir.

Mayın 16-da Türkiyə Rusiya ilə Ukrayna arasında danışıqlara ev sahibliyi edib. Danışıqlar İstanbuldakı Dolmabağça Sarayı kompleksində baş tutub və iki saatdan az davam edib. İki tərəf arasında 2022-ci ilin yazından bəri ilk birbaşa danışıqlar olan təmaslar Moskva və Kiyevə "1000-ə 1000" formatında məhbus mübadiləsi haqqında razılığa gəlmək imkanı verdi. Rusiya Müdafiə Nazirliyinin mayın 25-də verdiyi məlumata görə, İstanbul razılaşmaları çərçivəsində başlanan bu proses bir neçə mərhələdə uğurla başa çatıb.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın sözlərinə görə, Ankara məhbus mübadiləsini münaqişə tərəfləri arasında "etimadın gücləndirilməsi üçün mühüm addım" kimi qiymətləndirir. Türkiyə lideri vurğulayıb ki, döyüşlərə son qoymaq fürsəti qaçırılmamalıdır. Cənab Ərdoğanın sədrliyi ilə mayın 22-də Türkiyə Milli Təhlükəsizlik Şurasının iclasında edilən bəyanatlara görə, Türkiyə eyni zamanda əsas vasitəçi rolunu öz üzərinə götürmək istəyir.

### Donald Trampı Rusiyadan necə uzaqlaşdırırlar

Bu yaxınlarda Moskva və Kiyev arasında danışıqların növbəti raundunun dəqiq harada keçiriləcəyi ilə bağlı müzakirələr gedir. The Wall Street Journal-a verilən məlumata görə, Vatikan belə bir görüşə ev sahibliyi edə bilər. Ən azı, qəzetin yazdığına görə, ABŞ prezidenti Donald Trampın Avropa liderləri ilə təmaslarında bəhs etdiyi ssenari budur. Bununla belə, mayın 23-də çıxış edən cənab Lavrov bu variantı şübhə altına alıb: "Vatikanı danışıqlar yeri kimi təsəvvür edin. Mən deyərdim ki, pravoslav ölkələri katolik platformasında münaqişənin kök səbəblərinin müəyyənləşdirilməsi ilə bağlı məsələləri müzakirə edəndə, bu, bir qədər laqeydlikdir.

Mayın 25-də Moskva mənbələrinin izah etdiyi kimi, İstanbul hazırda Rusiya və Ukrayna arasında birbaşa danışıqların ikinci raundunun təşkili üçün ən çox ehtimal olunan məkandır. "Vatikan bir sıra səbəblərə görə görüş yeri olmayacaq, o cümlədən logistika. Hazırda ən çox ehtimal olunan variant İstanbuldur. "Təfərrüatlar tezliklə açıqlanmalıdır", - agentliyin mənbəsi bildirib. Cənab Fidanın səfərinin gündəmindəki yeganə mövzu Ukrayna nizamlanması deyil. O, ikitərəfli münasibətlərlə bağlı geniş spektri əhatə edirdi. Xəbər verildiyi kimi, bunlara iki dövlət arasında bank xidmətlərinin və ticarətin inkişafı üçün rahat mühitin yaradılması daxildir. Fidanın səfərinin ikinci günü, mayın 27-də baş tutması planlaşdırılan Rusiya və Türkiyə xarici işlər nazirləri arasında danışıqlar zamanı bu mövzuların bir sırası müzakirə olunacaq.

### Hürriyet: Fidan Moskvada Türkiyəni platforma kimi təklif edib

Türkiyənin xarici işlər naziri Hakan Fidan Moskvaya səfəri zamanı Türkiyənin Ukrayna üzrə danışıqların yeni mərhələsini qəbul etməyə hazır olduğunu bir daha təsdiq edib, Hürriyyət qəzeti yazır. "Nazir Fidandan Türkiyənin danışıqlarda öz rolunu oynamağa hazır olduğunu təsdiqləməsi gözlənilir", - məqalədə deyilir. Ötən gün Rusiya prezidenti Vladimir Putin Kremldə Fidanla danışıqlar aparıb. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Moskvanın Ukraynadakı vəziyyətin həllində vasitəçilik səylərinə görə Türkiyəyə minnətdar olduğunu vurğulayıb.

### Ukrayna-Rusiya danışıqlarında yeni mərhələ

Türkiyənin xarici işlər naziri Hakan Fidan Moskvada Ankaranın Ukrayna və Rusiya arasında sülh danışıqlarının ikinci raundunda vasitəçilik etməyə hazır olduğunu təsdiqləyib. Türkiyənin xarici işlər naziri Hakan Fidan Moskvaya iki günlük səfəri zamanı Ankaranın Ukrayna və Rusiya arasında danışıqların yeni raundunda vasitəçilik etməyə hazır olduğunu bildirəcək. Fidan artıq Rusiya prezidenti Vladimir Putinlə bir saatlıq görüş keçirib. Xarici işlər naziri Sergey Lavrov və Rusiyanın müdafiə naziri Andrey Belousovla da danışıqlar aparılıb. Nəşrin yazdığına görə, Ankara "ədalətli və davamlı sülhə" dəstək mövqeyini təsdiqləmək və neytral vasitəçi kimi öz xidmətlərini təklif etmək niyyətindədir.

### Bu arada...

Çin Rusiyanın Ukraynaya qarşı müharibəsində əsas brokerdir, ikili təyinatlı mallar tədarük edir və sanksiyalardan yayınmağa kömək edir. Çin, İran və Şimali Koreya Ukraynaya qarşı müharibədə Rusiyaya fəal kömək edir. "La Repubblica" xəbər verir ki, bunu NATO-nun baş katibi Mark Rutte mayın 26-da NATO Parlament Assambleyasında çıxışı zamanı deyib. Onun sözlərinə görə, Çin Rusiyanın Ukraynaya qarşı müharibəsində əsas vasitəçidir, çünki o, Rusiyaya ikili təyinatlı mallar verir və beynəlxalq sanksiyalardan yayınmağa kömək edir. Rutte vurğulayıb ki, Alyans Pekinin Moskvanı dəstəkləməkdə oynadığı rolu aydın başa düşür.

NATO-nun baş katibinin sözlərinə görə, Rusiyaya hərbi yardım müqabilində qabaqcıl texnologiyalar alan Şimali Koreyanın roluna da diqqət çəkib. İranla bağlı Rutte qeyd edib ki, Tehran Moskvadan maliyyə imtiyazları alır və bu vəsaitləri Yaxın Şərqdə sabitliyi pozmaq üçün istifadə edir. Rutte vurğulayıb ki, Çin, Rusiya, İran və Şimali Koreya öz hərəkətlərini əlaqələndirirlər və bu, onun fikrincə, NATO-ya üzv ölkələr üçün ciddi siqnal olmalıdır.

Xatırladaq ki, Ukrayna Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Oleq İvaşşenko Çinin Rusiyaya sistemli şəkildə hərbi sənaye kompleksi müəssisələri üçün xüsusi kimyəvi maddələr, barıt, avadanlıq və dəzgahlar tədarük etdiyini bildirmişdi. Bundan əvvəl ABŞ Ukraynadakı müharibənin nizamlanması çərçivəsində Rusiya-NATO Şurasının işini bərpa etməyi təklif etmişdi.

### İsveçdən Ukraynaya 410 milyonluq silah yardımı

Pulun böyük hissəsi pilotsuz təyyarələrin, mərmilərin alınmasına və Ukraynanın hava hücumundan müdafiəsinin gücləndirilməsinə sərf olunacaq. İsveç Ukraynanın müdafiə qabiliyyətini gücləndirmək üçün 4,8 milyard İsveç kronu (təxminən 410 milyon avro) ayırdığını açıqlayıb. İsveç hökuməti bazar ertəsi, mayın 26-da bildirib ki, dəstək bu ilin əvvəlində təqdim edilən 19-cu yardım paketinin bir hissəsidir. Bildirilir ki, bu, Ukraynanın müdafiə qabiliyyətinin gücləndirilməsinə yönəlmiş bir neçə çoxtərəfli fond və koalisiyaya maliyyə töhfələrinə aiddir. İanələrin ümumi məbləği təxminən 4,8 milyard kron təşkil edir. "Bu ödənişlər Ukraynanın silahlı qüvvələrini və müdafiə sənayesini Rusiyaya qarşı müdafiədə daha güclü edəcək", - müdafiə naziri Pol Conson bildirib.

Minatəmizləmə Koalisiyası: minatəmizləmə avadanlıqlarının alınması üçün 100 milyon kron.

Dron Koalisiyası: müxtəlif növ dronların alınması üçün 300 milyon kron.

Dəniz Təhlükəsizliyi Koalisiyası: İnterharge əməliyyatının bir hissəsi olaraq Ukrayna Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin təlimi üçün 50 milyon CZK.

İT Təhlükəsizlik və İdarəetmə Sistemləri Koalisiyası: Ukrayna Delta idarəetmə sisteminin yaradılması üçün avadanlıq üçün 30 milyon kron.

İsveç həmçinin "Danimarka modeli"nə 1 milyard krondan çox məbləğdə silah alışına əlavə töhfə verməyə razılaşıb. Bundan əlavə, hökumət Ukraynanın zirehli maşınlar kimi quruda döyüş qabiliyyətinin artırılmasını dəstəkləmək üçün avadanlıqlara 418 milyon CZK ayırmaq qərarına gəlib. Danimarka satınalmalara başçılıq edir. İsveçdən Ukrayna üçün milli sursat tədarükü ilə yanaşı, hökumət Çexiya və Estoniyadan ümumilikdə təxminən 1,1 milyard kron dəyərində sursat almaq üçün iki çoxtərəfli təşəbbüsü dəstəkləmək qərarına gəlib. İsveç hökuməti həmçinin çoxtərəfli əməkdaşlıq çərçivəsində həm hava hücumundan müdafiə sistemlərinin, həm də uzaq mənzilli pilotsuz təyyarələrin alınması üçün 1 milyard krondan çox vəsait ayırıb. Bundan əvvəl İsveç Ukraynaya 19-cu hərbi yardım paketini ötürdüyünü açıqlamışdı. Bu, həcminə görə rekord qıran sövdələşmədir - təxminən 1,6 milyard dollar. Paketə digər şeylərlə yanaşı, Ukraynanın hava hücumundan müdafiəsi, artilleriya, peyk rabitəsi və dəniz imkanlarına dəstək daxildir.

### Ukraynadan qaz həmləsi

"Türk axını" qaz kəməri Ankaranın Moskva və Kiyevlə koordinasiyası sayəsində işləyir və zədəsizdir. Bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan rusiyalı həmkarı Sergey Lavrovla keçirdiyi mətbuat konfransında deyib. "Biz bu məsələ ilə bağlı həm rusiyalı, həm də ukraynalı həmkarlarımızla əlaqə saxlayırıq. Hücum ehtimalı olanda rusiyalı həmkarlarımız bizə məlumat verir və bu məsələni Ukrayna tərəfi ilə razılaşdırırıq", - Fidan bildirib. Ankara hesab edir ki, Türkiyənin maraqlarına uyğun olan ərazi hərbi hədəf kimi istifadə edilə bilməz. O əlavə edib ki, Ankaranın Moskva və Kiyevlə əlaqəsi hazırda zədələnməmiş və fəaliyyətini davam etdirən "Türk axını"nın təhlükəsizliyini təmin etməyə kömək edir.

Mayın 1-də Rusiyanın "Türk axını" kəməri ilə Avropaya qaz ixracını artırdığı xəbəri yayılıb. Bu ilin yanvar-aprel aylarında xammal tədarükü ötən ilin müvafiq dövrü ilə müqayisədə 13% artaraq 5,76 milyard kubmetrə çatıb. Fevralın 28-də Ukrayna pilotsuz təyyarələri "Türk axını" infrastrukturuna daxil olan Krasnodar diyarında yerləşən "Russkaya" kompressor stansiyasına hücum edib. Rusiya Müdafiə Nazirliyi bildirib ki, bütün pilotsuz təyyarələr nəzərdə tutulan hədəfə çatmamış məhv edilib. Üstəlik, Ukrayna Silahlı Qüvvələrinin (AFU) qaz kəmərinə bu hücumu birinci deyildi; oxşar vəziyyət yanvarın 11-də də baş verib. Bundan əvvəl Rusiya Xarici İşlər Nazirliyi Ukraynanın "Türk axını"na hücumları ilə bağlı Aİ-nin susmasını qiymətləndirib.

***V.VƏLİYEV***

RAKURS

ARAŞDIRMA

# Yer üzündə İLK ADDIMLAR VƏ TARİXİ FAKTLAR

***Əfsanələrə və miflərə görə, guya ilk dünya iqtisadiyyatını yaradanlar məhz finikiyalılar olublar. Maraqlıdır, ümumiyyətlə, həyatın başlanğıcında ilk söz belə hansı söz olub? Yaxud, bu söz hansı dildə olub və mənası nə olub? Həmin söz ilk dəfə nə vaxt və kim tərəfindən qeydə alınıb? Hər halda ilk addımlar, ilk ixtiralar və ilk tətbiqlə bağlı suallar bəşəriyyəti bu vaxta qədər və hal-hazırda da səbəbsiz yerə düşündürməyib.***



## Livandakı Sarkofaqda unikal kitabə

Xatırladaqki, Livan "dünya əlifbasının doğulduğu yer" adlandırılır və bu heç də təsadüfi deyil. Beyrut muzeyi də onun mənşəyinə işıq sala biləcək bir artefaktın "evi" sayılır. Həmin sarkofaqın yaşı, müxtəlif hesablamalara görə, üç min ildən çoxdur. Bəzi mənbələrə görə, hətta 3,5 min il hesab olunur. Arxeoloqlar daha qədim qəbirlər də tapıblar, buna baxmayaraq, bu, daha unikal bir artefaktdır. O, bütün bəşəriyyətin tarixi haqqında anlayışı, düşüncələri, fikir və mülahizələri belə həmişəlik dəyişib.

Diqqətə çatdıraq ki, hökmdar Axiramın sarkofaqı 100 ildən bir qədər əvvəl aşkar edilib. Hökmdar Axiramın kim olduğunu dəqiq öyrənmək heç də asan məsələ olmayıb. Amma məsələ bunda da deyil. Söhbət orada yazılan yazıdan gedir. "Əgər hər hansı padşah və ya başqa bir hökmdar, yaxud hər hansı bir hərbi rəhbər hücum edərək, məzarı açsa, qoy onun hakimiyyətinin əsasları sarsılsın, çöksün, dağılsın və ondan heç bir yazı da qalmasın", sözləri dünyanın ilk əlifbasında həkk olunub. Bəli, təsüvvür edəndə dəhşətə gəlmək olur, çünki o dövrdə, yazıların olmadığı bir zamanda ilk yazılarda dəhşətli lənət və qarğış əks olunurdu.

## Tarixdə ilk əlifba necə yaranıb?

Qədim dövrlərdə elə hesab edilirdi ki, insanın adı onun ölməzliyinin açarı ola bilər. Ona görə də bir adı "silmək" ən dəhşətli cəza, ən böyük lənət hesab olunurdu. Təsadüfi deyildi ki, fironlar öz sələflərinin adlarını məhv edirdilər, tarixdən silməyə çalışırdılar, assuriyalılar bütöv şəhərləri salnamələrdən yox edirdilər, romalılar düşmənlərinin kitabxanalarını belə yandırırdılar. Məhz buna görə də əlifbanın harada, nə vaxt və necə yarandığı hələ də araşdırma olaraq dünyanın diqqətini cəlb edir.

Ola bilsin ki, tarixdə ilk əlifba məhz qədim hökmdarlar əbədi həyat haqqında düşünməyə başlayanda yaranıb. Ucadan deyilən, ifadə olunan ad hətta boş səs olaraq qəbul olunub. Daşa həkk olunmuş "əsərlər" məhz əsrlərin, hətta minilliklərin "xatirəsi" sayılır. Finikiya hökmdarı Axiram bu nəzəriyyəni praktikada ilk sübut edən hesab olunur. Təsadüfi deyil ki, tarixçilər bu hökmdarın kim olduğu, nə vaxt yaşadığı və ölkəsinin tarixində hansı rol oynadığı barədə hələ də mübahisə edirlər. Bu faktlar zaman-zaman itirildisə də, hökmdarın adı sarkofaqındakı yazı sayəsində bu günə qədər gəlib çatıb. Qayada on metr dərinlikdə oyulmuş qəbirdə onun elə məlum bir yazısı olan sarkofaq var. İndi də bu divara diqqət yetirmək kifayət edir və hər halda, orada olan yazı özü də səbəbsiz yerə dünyanın diqqətin cəlb etməyib. Təxminən dörd metr dərinlikdə başqa bir kifayət qədər lakonik və qısa şəkildə, özü də Finikiya dilində "Ladat" sözü yazılıb ki, bu da "ehtiyatlı olun" deməkdir.

## Qədim krallığın qədim şəhəri - Biblos

Əlifbadan əvvəl insanlar obyektlərin sadələşdirilmiş təsvirləri olan piktoqramlardan istifadə edirdilər. Bu piktoqram günəş şüaları olan bir dairədir. Çay burada dalğalı bir xətt kimi qeyd olunur. Finikiya padşahının uzun və kifayət qədər ədəbi epitafiyası alimləri onun təbəələrinin yazılı mesajlar tərtib etməkdə artıq böyük təcrübəyə malik olduğu fikrinə gətirib çıxarıb. Tutaq ki, bu yazı birinci deyil, bəs o zaman daha əvvəl olanlar harada və necə meydana çıxıb? Tarixçilər hesab edirlər ki, cavabı hökmdar Axiramın hökm sürdüyü şəhərdə axtarmaq lazımdır. Beyrutdan 38 kilometr aralıda olan qədim Biblos şəhərində. Bu şəhər Livanın paytaxtından da çox qədim sayılır. Bax elə həmin şəhərdə axtarmaq barədə düşünülür.

Doğrudur, yer kürəsinin ən qədim şəhərlərindən biri olan bu şəhərin neçə yaşı olduğuna dair tarixçilər hələ də yekdil fikrə və son qərara gələ bilməyiblər. Bəzi ingilis mənbələri yazır ki, Biblosun 9 min il yaşı ola bilər. Doğrudan da, bu məqamda elə zənn etmək olar ki, söhbət tarixi bir ekskursiyadan gedir və elə bil həmin dövrə səyahət edilir. Hər halda, əgər qeyd olunan qədim bir dövr haqqında danışılırsa, bununla bağlı mülahizələr, fikirlər bildirilirsə, qədim bir krallığın qədim bir şəhəri olan Biblos haqqında məlumatlar ortaya çıxırsa, deməli, bunun özü artıq olduqca əhəmiyyətli sayılır.

## Biblosun dünya irsi: 17 sivilizasiyanın izləri və tarixdə ilk dəniz donanması

Burada 19-cu əsrin ortalarından başlayaraq qazıntılar aparılır. Arxeoloqlar artıq o qədər qiymətli, həddindən artıq qiymətli tapıntılar aşkar ediblər ki, bütün şəhər YUNESKO-nun ümumdünya irsi elan edilib. "Bu ərazidə arxeoloqlar 11 metr dərinliyə enən 17 sivilizasiyanın və 21 arxeoloji təbəqənin izlərini tapıblar", deyə tarixçi Jan-Klod Havat bildirib. Bəli, həmin ərazidə hökmdar Axiram hökmranlıq edirdi. O dövrdə, daha doğrusu, təxminən eramızdan əvvəl 13-11-ci əsrlərdə Biblos bəlkə də bütün Aralıq dənizinin ən əhəmiyyətli şəhəri sayılırdı. Bəşər tarixində ilk həqiqi dəniz donanması məhz burada meydana çıxmışdı.

Tarixçilərin qeyd etdiklərinə görə, dünya tarixində ilk gəmilər haqqında qeyd olunan dəniz donanmasında dayanırdı. Onların bildirdiklərinə görə, işgüzar tacirlər sahil boyu qaçır, qullar nəhəng yüklər daşıyır, gəmilər ucsuz-bucaqsız bir axınla yola düşürdü və Finikiyanın dəniz ticarəti görünməmiş bir miqyas almışdı. Yəni çox dinamik şəkildə inkişaf etmişdi. Məhz buna görə də tarixdə ilk dəniz donanması sayılır.

## Finikiyalılar ilk dünya iqtisadiyyatını necə yaratdılar?

Finikiyalılar təkcə ticarət etmirdilər. Onlar ticarət etməklə, əslində, mahiyyətcə elə ilk dünya iqtisadiyyatını da yaratmış olurdular. Onların bənövşəyi boyaları, şüşələri, zeytun yağları və sidrlərinə hər yerdə tələbat var idi. "Bu ərazi strateji ərazidir və qədim dövrlərdən, qədim misirlilərin dövründən bura finikiyalılarla əlaqələr üçün cəlbedici yer olub. Çünki buradakı bütün dağlarda sidr ağacları bitir. Misirlilər isə öz donanması üçün sidr ağacını əldə edirdilər", deyə tarixçi Jan-Klod Havat belə izah edib.

İndiki Livan, Suriya və İsrail ərazisində yerləşən Finikiya şəhərləri Aralıq dənizi, Yaxın Şərq və Afrika arasında dəniz yollarının kəsişməsində əsas mövqe tuturdu və 2000 il ərzində Biblos bu qlobal ticarətin "ürəyi" sayılırdı. Bir sözlə, coğrafi mövqe də öz təsirini göstərirdi. Məhz bu mövqe sayəsində də finikiyalılar dünya iqtisadiyyatının yaranmasında öz sözlərini deyə bildilər. Dünya iqtisadiyyatında ilk addımlar da elə beləcə atıldı

## Finikiya əlifbası bütün qədim dünyanı necə birləşdirdi?

Müxtəlif mədəniyyətlərin, adət-ənənələrin və dillərin "Babil çaşqınlığı" tacirlər üçün əsl "büdrəmə bloku" idi. Malların sayı və uçotu aparılmalı, əməliyyatlar uçota alınmalı idi. Sözsüz ki, bu məqamda hansısa qeydlərə ehtiyac duyulurdu. Heroqliflər və mixi yazılar çox mürəkkəb idilər və yalnız bir neçə nəfər üçün əlçatan sayılırdı. Məhz buna görə də, o zaman Finikiyalılar bu problemi həll etmək üçün sadə və "dahiyanə bir üsul" tapdılar. Onlar əlifbanı icad etdilər.

"Finikiya əlifbası vacib sayılır, çünki o, fonetik əlifbadır. Bir hərf bir səsi təmsil edir. Bu yazıda inqilab deməkdir, çünki bu hərflərlə istənilən yazı yazıla bilərdi", deyə Beyrut Milli Muzeyinin Antik Əsərlər Direktorluğu Repozitoriyasının meneceri Mariya-Antuanetta Jmayel izah edib. Diqqətə çatdıraq ki, Finikiya əlifbası yalnız 22 hərfdən, yalnız samitlərdən ibarət olub və bütün qədim dünyanı birləşdirən əlifba sayılıb. Maraqlıdır, görəsən, Finikiya əlifbası ilə müasir əlifbalar arasında nə əlaqə var? Ən maraqlısı odur ki, Finikiya əlifbasının ilk hərfi belə digərləri ilə uyğun gəlir. Bu ilk hərf "alef" hərfidir. Həmin hərf təxminən 100-200 il sonra, Axiramın zamanında artıq 90 dərəcə "döndü" və "A" hərfinə çevrildi.

## Dünya xalqları öz əlifbalarını Finikiya əlifbası ilə necə uyğunlaşdırıblar?

Bir çox xalqlar hərflə bağlı finikiyalıların faydalı ixtirasından həvəslə istifadə ediblər. Çoxları Finikiya əlifbasını əsas götürüblər və onu özləri üçün uyğunlaşdırıblar. Romalılar bunun ardınca yazını təkmilləşdiriblər. Yunanlar saitləri əlavə ediblər. Məktublar hələ də bir qədər rəsmi yazılara bənzəyirdi. Müasir "L" hərfi bir vaxtlar çoban çubuğu, "O" hərfi insan gözü, "P" hərfi baş, "H" isə ilkin olaraq, qəfəsə bənzəyirdi və evin, yaxud da qalanın divarını simvolizə edirdi.

"Romalılar hərfləri daha həndəsi hala gətirdilər, çünki həndəsi hərfləri daşda oymaq, cızmaq asan idi. Ərəblər kursivləri perqamentə asan və tez yazdıqları üçün kursiv təqdim etdilər", deyə Dövlət İdarəetmə Universitetinin Davamlı Peşə Təhsili Direktorluğunun direktoru vəzifəsini icra edən Anton Anferov öz fikirlərini belə ifadə edib. Bəli, finikiyalılardan əvvəl mixi yazı, eləcə də Misir heroqlif sistemləri mövcud idi və bir çox mürəkkəb simvollardan ibarət sayılırdı. Ona görə də müəyyən çətinliklər yaradırdı, hər kəsə əlçatan deyildi və öyrənilməsi də çətinlik törədirdi. Məsələ burasındadır ki, Finikiya əlifbası qətiyyən çətinlik törətmədi və demək olar, hər kəsə oxumağı və yazmağı öyrənməyə imkan verdi. Bundan əlavə, Finikiya yazısında sabit yazı istiqaməti də olub və məhz üfüqi, sağdan sola istiqamətdə yazılıb. Belə görünür ki, bu gün məlum olan əlifbaların çoxunun "kökü" bu və ya digər şəkildə Finikiya əlifbasına gedib bağlanır. Üç min il əvvəl yazılmış bu 22 hərfin sayəsində ərəb, ivrit, gürcü, hətta kiril əlifbası da meydana çıxıb.

Bu gün dünyada müxtəlif dillər olduğu kimi, müxtəlif, bir-birindən fərli əlifbalar da mövcuddur. Amma finikiyalıların yaratdıqları əlifbanın bir ilk addım olduğu tarixçilər tərəfindən bildirilir. Hər halda, ilk addımlar və bu addımlarla bağlı tarixi faktlar bu baxımdan səbəbsiz yerə araşdırılmır. Çünki ilk addımlar və ilkə imza atıldığını təsdiq edən tarixi faktlar diqqəti daha çox cəlb edir və maraq yaratdığı da anlaşılandır

***İnam Hacıyev***

# Blok imtahanı: suallar çətin, variantlar ikibaşlı

***Mayın 25-də II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Qazax, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba və Xaçmazda təşkil olunub.***

Xankəndi şəhərində keçirilən imtahan işğaldan azad edilmiş bölgələrdə təşkil edilən ilk qəbul imtahanıdır. İmtahan Qarabağ Universitetində keçirilib. Bu imtahanda Xankəndi ilə yanaşı, Xocalı, Ağdərə, Şuşa və Laçında məskunlaşmış abituriyentlər iştirak ediblər. Bununla yanaşı, Füzulidə M.Uluqbəy adına məktəbin, Cəbrayılda M.Mehdizadə adına məktəbin və Zəngilanda Ağalı kənd tam orta məktəbinin cari il məzunları da qəbul imtahanlarını Xankəndidə veriblər.

İmtahanlardan narazı qalan abuturiyent və valideynlər sosial şəbəkələrdə etiraz statusları yayımlayıblar. Onlardan bəziləri: "Maraqldır, tarixdən bu qədər cümlə dərinliyinə enmək, bu qədər əlaqələndirici sual salmaq nəyə lazımdır? Əgər saldığınız sual çox vacib məlumatdırsa niyə kitabda sadəcə bir və ya yarımçıq cümlədən başqa məlumat yoxdur? Suallar hazırlanarkən səviyyələri üzrə hazırlamaq lazımdır. Görəsən hansı məntiqlə hazırlanıb suallar?"



"Tarix fənninin suallarına asan deməzdim, suala baxırsan normal sualdır, ancaq variantlarda sanki oyun oynanılmışdı. Bir neçə sual MİQ xatırladırdı. Tarix fənninin sualları izah, analiz tələb edən suallar idi. Vaxt məhdudluğu, həyəcan şagirdlərdə əlbətdə narazılıq yaradacaq. İl boyu oxu, 5 dənə sxemli sual nə deməkdir? Şagird səviyyəsini aşan suallar idi, üstəlik 2 və 3 qrupları suallar eynidir. Niyə? 3 qrup tarix 150, 2 qrup tarix 100 bal olaraq qiymətləndirilir. Ədalət hardadır?"





Valideynlər xüsusilə rus sektoruna edilən ədalətsizlikdən narazıdırlar. Dediklərinə görə Azərbaycan bölməsinə nəzərən rus bölməsinin imtahanlarına salına daha çətin formatda tərtib olunur. Bu səbəbdən də abituriyentlərin əksəriyyəti təhsilini xarici ölkədə davam etdirməyə üstünlük verir.

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 213 imtahan binası, 4018 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 213 ümumi imtahan rəhbəri, 635 imtahan rəhbəri, 5014 nəzarətçi, 717 buraxılış rejimi əməkdaşı, 213 bina nümayəndəsi cəlb olunub.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahanın gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

İlkin məlumatlara əsasən, 7 nəfərdə mobil telefon, 2 nəfərdə isə "ağıllı" saat aşkarlandığı üçün imtahandan xaric olunub. Bundan əlavə, başqasının yerinə imtahana gəlmə halı da aşkar edilib. Bu faktla bağlı xüsusi araşdırma aparılacaq və həm imtahanda iştirak etməli olan şəxs, eyni zamanda onun yerinə imtahana gələn şəxslə bağlı lazımı tədbirlər görüləcək. Xatırladaq ki, qayda pozuntularına yol verənlərin müsabiqə nəticələri ləğv olunur və onlar qəbul imtahanının ikinci cəhdinə də buraxılmırlar.

İmtahanda 54247 abituriyentin iştirakı nəzərdə tutulurdu. İmtahanda 73 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyentlər də iştirak edib. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Mayın 26-dan etibarən DİM-də imtahan protokolları və materialların emalına başlanılacaq. İmtahanlarda istifadə olunan açıq tipli tapşırıqların yoxlanılması vaxt tələb etdiyindən nəticələrin yaxın 16-17 gündən sonra elan olunması nəzərdə tutulur. Növbəti qəbul imtahanlarında iştirak edəcək abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, sənədlərlə (şəxsiyyət vəsiqəsinin əsli və buraxılış vərəqəsi) bağlı diqqətli olsunlar. Bundan əlavə, imtahan saat 10:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Məlumat üçün qeyd edək ki Dövlət İmtahan Mərkəzi xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq istəyənlər üçün "Abituriyent" jurnalının xüsusi buraxılışı olan vəsaitləri nəşr edib. Vəsaitlərdə xüsusi qabiliyyət tələb edən ixtisasların yığcam xarakteristikası, onların hansı ali və orta ixtisas təhsili müəssisələrində olması haqqında məlumatlar, qabiliyyət imtahanı proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyələr, tapşırıq nümunələri, reproduksiyalar, normativlər, bir sözlə, xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin imtahana səmərəli hazırlaşmaları üçün vacib materiallar dərc edilib.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara dair materiallar istiqamətlərinə uyğun olaraq 5 vəsaitdə təqdim edilib: 1. Təsviri sənət o Memarlıq, 2. Musiqi sənəti, 3. Jurnalistika o İslamşünaslıq, 4. Teatr, kino və xoreoqrafiya sənətləri, 5. İdman. Vəsaitləri DİM-in inzibati binasından (Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299), həmçinin kitab mağazalarından almaq, www.abiturient.az saytından və Wolt tətbiqindən sifariş etmək mümkündür.

Mayın 26-dan qəbul imtahanlarının ikinci mərhələsinin II cəhdində iştirak etmək üçün qeydiyyat başlayır. Qeydiyyat 26 may-8 iyun tarixində həyata keçiriləcək. Qeyd edək ki, II cəhd imtahanı II və III ixtisas qrupları üzrə 6 iyul, I və IV ixtisas qrupları üzrə isə 13 iyulda həyata keçiriləcək. Həmçinin Coğrafiya fənni üzrə əlavə imtahanının tarixi 13 iyuldur.

İmtahanın 2-ci cəhdində iştirak etmək istəyənlər şəxsi kabinetin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (https://eservices.dim.gov.az/erizebak/cehd2/) daxil olaraq yenidən imtahan vermək istədikləri ixtisas qrupunu seçərək qeydiyyatdan keçirlər və müvafiq qaydada ödəniş (ödəniləcək məbləğ barədə sistem tərəfindən avtomatik olaraq istifadəçiyə məlumat verilir) edirlər.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları; şəhid ailəsinin üzvləri; valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar; məcburi köçkün statusu olan şəxslər; I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların imtahanda iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir. Bu abituriyentlər haqqında məlumat DİM tərəfindən müvafiq icra orqanlarının informasiya sistemlərindən elektron üsullarla əldə olunur.

İmtahanda yalnız göstərilən tarixlərdə qeydiyyatdan keçmiş abituriyentlər iştirak edə bilərlər. Abituriyentlərə ikinci imtahana qeydiyyat zamanı birincidəkindən fərqli ixtisas qrupunu seçməyə icazə verilir. 4 may tarixində keçirilən Azərbaycan dili (dövlət dili kimi) imtahanından qeyri-məqbul alan abituriyentlərə də yay qəbul imtahanına qeydiyyatdan keçməyə icazə verilir. Lakin həmin abituriyentlər 29 iyunda keçiriləcək II Azərbaycan dili imtahanından qeyri-məqbul aldıqları təqdirdə müsabiqəyə buraxılmayacaqlar.

***Lalə Mehralı***

# Günnüt əməliyyatı:
## Böyük Zəfərə gedən yolun bələdçisi

Tarixin ayrı-ayrı vaxtlarında ermənilərin Azərbaycana qarşı torpaq iddialarının şahidi olub bu xalq. Və haqsız, ədalətsizcəsinə torpaqlarımızın bir qismini itirmişik. Bu iddialar 1988-ci ildən başlayaraq ermənilərin torpaqlarımızı yenidən tamah dişini qıcaması, Qarabağı və Şərqi Zəngəzurun bir sıra ərazilərini işğal etməsi, Naxçıvan Muxtar Respublikasını blokada vəziyyətinə salması ilə nəticələndi. Bu səbəbdən də 90-cı illər Azərbaycan xalqının yaddaşında çətin, ağrılı-acılı illər kimi qaldı: torpaqlarımız işğal olundu, yüzlərlə şəhər və kənd dağıdıldı, minlərlə azərbaycanlı qaçqın-köçkün taleyi yaşadı.

Naxçıvan ağır blokada şəraitinə salınaraq paytaxt Bakı və ölkənin digər əraziləri ilə quru yolla əlaqələri tamamilə kəsildi. İnsanlar acınacaqlı hallarla üzləşməli oldular. Elektrik enerjisi, təbii qaz xətlərinin Ermənistan ərazisindən keçən hissəsinin kəsilməsi, dəmir yolunun dağıdılması Naxçıvanı böyük çətinliklərlə üz-üzə qoydu. İnsanlar qaranlıqda və soyuqda qalmaqla bərabər, dəmir yolunun bağlanması ilə iqtisadi iflicə məruz qalan Naxçıvanda həm də iş yerlərini itirməli oldular. Bakı ilə heç bir əlaqəsi olmayan muxtar respublikada əhali aclıqla mübarizə apardı. Üstəlik informasiya blokadasına da məruz qaldı, uzun illər olmazın qayğıları ilə yaşadı.

### Qızğın döyüşlər getsə də...

Belə bir dövrdə həm də muxtar respublikanın Ermənistanla sərhəd kəndlərində qızğın döyüşlər gedirdi. Naxçıvanı da işğalı etməyi qarşısına məqsəd qoyan ermənilər buranı blokada vəziyyətinə salmaqla məqsədlərinə çatacaqlarına ümid edirdilər. Lakin bir neçə il sərhədlərdə döyüşlərin getməsinə baxmayaraq onların Naxçıvanla bağlı arzuları baş tutmadı. Naxçıvanlılar var-qüvvə ilə torpaqlarını qorumağa cəhd göstərdilər. Blokada şəraitində olan, silah-sursat təminatı zəif olan bir bölgədə müasir silah-texnika ilə təchiz olunmuş Ermənistan ordusu ilə döyüşmək çətin olsa da, insanlar canları bahasına Naxçıvanı qorudular.

Naxçıvan əsasən qorunsa da, təəssüf ki, 1990-cı il yanvar ayının 19-da Kərki kəndi və 1992-ci ildə isə Günnüt kəndi ermənilər tərəfindən tamamilə darmadağın edildi.

Erməni işğalına məruz qalarkən təbiət gözəli, həm də abad Günnütün yaşayış binaları, o cümlədən kənddə bir çox sosial obyektlər dağıdıldı, qədim yaşayış yeri erməni vandallar tərəfindən xarabalığa çevrildi. Kəndin yaşayış evləri ilə birlikdə məktəbi, tibb məntəqəsi, kitabxanası, eləcə də qəbiristanlığı və məscidi də viran edildi. Əhali rayonun digər yaşayış məntəqələrinə, əksəriyyəti isə Şərur rayonundakı Mahmudkəndə köçməyə məcbur oldu. Ümumi muxtar respublika qarşılığında bu işğalı özləri üçün uğur hesab edən ermənilər Qarabağ və Şərqi Zəngəzur əraziləri kimi, bu kəndləri də bir gün geri qaytaracaqlarını yaxşı bilirdilər. Lakin bilsələr də, təəssüf ki, həm Kərkini, həm də Günnütü itirməli olduq. İllər uzunu bu kəndlərin yoxluğu, işğal altında olması hissi ilə yaşadıq. Həm də bu işğalla barışmayaraq, bu iki kəndin əldən getməsini ağır itki hesab edərək yaşadıq.

### "Günnüt əməliyyatı": 7 ilin qüruru

Uzun illər dövlətimiz torpaqlarımızın işğaldan azad edilməsi üçün tədbirlər həyata keçirdi. Artıq özünü buna hazır hesab edəndə isə Böyük Zəfərə aparan yol başlanğıcını 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq dörd gün davam edən Aprel döyüşlərindən, 2018-ci il may ayının 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasında həyata keçirilən Günnüt əməliyyatından, 2020-ci ilin tarixi iyul günlərində baş verən İyul döyüşlərindən götürdü. Bu yolun başlanğıcında biz artıq torpaqlarımızı işğaldan azad etməyə hazır olduğumuzu bəyan etmişdik. 30 ilin əvvəlində itirdiklərimizi 30 ilin tamamında geri almağa qalxmışdıq. İki 30 arasındakı zaman kəsiyi bu ölkəni əsarətdən müstəqilliyə, iqtisadi böhrandan inkişafa, ordu yoxluğundan ordu varlığına





gətirib çıxardığı kimi, eyni zamanda 30 ilin o başında itirilən torpaqları bu başında geri almağı reallaşdırmışdı.

Naxçıvanın etibarlı müdafiəsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyevin 18 dekabr 2013-cü il tarixli Fərmanı əsasında muxtar respublika ərazisində mövcud olan hərbi birliyin bazasında yaradılmış Əlahiddə Ümumqoşun Ordusunun 2018-ci il mayın 20-dən 27-nə qədər əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi ilə birlikdə 11 min hektar ərazi Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Günnüt kəndi ətrafında yerləşən 2065 metr hündürlükdə olan Xunut, 1869 metr hündürlüyü olan Mehridağ , 1683 metr hündürlükdə olan Qızılqaya yüksəkliyi Ümumqoşun Ordu bölmələrinin nəzarəti altına keçdi. Azad olunmuş ərazilərin 8 min hektarı əkinçilik üçün yararlı olan torpaqlar idi. Qızılqaya yüksəkliyinin ələ keçirilməsi isə Ermənistan ərazisindən keçən Yexeqnadzor-Gorus-Laçın-Xankəndi yolunun nəzarət altına alınmasına imkan verdi.

Günnüt əməliyyatından sonra Ermənistan silahlı qüvvələri baş qərargahının rəisi olmuş M.Akopyan etiraf edirdi ki, nəticə etibarilə Ermənistan tərəfi çox böyük ərazilərə nəzarəti itirdi. Beləliklə, Günnüt əməliyyatı Azərbaycan Ordusunun gücünün və qüdrətinin yeni bir ifadəsi oldu. Bu və bundan əvvəlki əməliyyatların həyata keçirilmə taktikası, komandir heyətinin səriştəsi və məharəti göstərdi ki, Azərbaycan Ordusu daha böyük zəfərlərin əldə edilməsinə qadirdir. Hər bir hərbi əməliyyat itkisiz başa gəlməyə də bilir. Xüsusilə torpağın düşməndən geri alınması uğrunda mübarizə gedirsə, burada şəhid də olacaq, qazi də. Elə əməliyyat zamanı-mayın 20-də həlak olan Azərbaycan Ordusunun hərbçisi Adil Tatarov da Günnütün azadlığı uğrunda şəhidlik zirvəsini ucaldı.

### Böyük Zəfərə doğru...

Beləliklə, milli ordumuz 2020-ci ilədək bir neçə əməliyyatları Zəfər təntənəsi ilə başa vurdu. Əslində bütün bunlar illər öncə torpaqlarımızın azad edilməsinə hesablanmış plan və tədbirlər idi. Əgər müstəqilliyimizi yenicə əldə etdiyimiz 90-cı illərin əvvəlində ölkəni iqtisadi böhran bürümüşdürsə, Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi ilə bütün sahələrin inkişafı üçün hazırladığı konsepsiya sonrakı illərdə uğurlu nəticələri ilə ölkəmizi dirçəltmiş, ərazi bütövlüyümüz məsələsini gündəmə gətirmişdi. Ötən illərdə ölkədə gənc nəslin vətənpərvər ruhda böyüməsi, torpaqların işğalı səbəblərinin olduğu kimi anladılması onların hər birində o ruhu formalaşdırmışdı ki, Vətən üçün bir əmr yetər.

Günnüt əməliyyatından iki il əvvəl olan Aprel döyüşləri Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında baş vermiş hərbi münaqişə, 1994-cü ildə atəşkəs haqqında imzalanan sazişdən bəri ən şiddətli döyüşlər idi. Hələ də düşüncələri 1990-cı illərdə qalan ermənilərin bu dəfə də üstünlük əldə etmə kimi yanlış fikirləri elə həmin dörd gündə alt-üst oldu. Döyüşlər Silahlı Qüvvələrimizin qələbəsi ilə nəticələndi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.

Lakin düşmən düşmənliyində, tamahkar tamahkarlığında qalar, deyiblər. Erməni olasan, tamah dişini çəkib atasan, bu mümkün olan iş deyil. Həm də 1990-cı illərin havası bu tayfanı nədənsə tərk edə bilmirdi. Bu səbəbdən aradan dörd il ötəndən sonra yenidən baş qaldırdılar. Bu dəfə isə özlərinin də vurğuladıqları kimi, böyük hazırlıqla.

2020-ci ilin iyul ayının 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutdular. Silahlı Qüvvələrimizin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində hücum cəhdinin qarşısı alındı. Döyüşün ilk saatlarında 2 hərbi qulluqçumuz şəhid oldu, 5 nəfər yaralandı, onlardan biri daha sonra aldığı yaralardan dünyasını dəyişdi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, döyüşlər zamanı Ermənistan Ordusunun şəxsi heyəti çoxsaylı itki vermişdi.

İyulun 13-də də qızğın döyüşlər getmişdi. Tovuz istiqamətində tərəflərin bir-birinə qarşılıqlı zərbələr endirməsi yenə də davam etmişdi. Ermənistan kütləvi informasiya vasitələri Ermənistan hərbi bölmələrinin Tovuz rayonunun Ağdam kəndi istiqamətində yerləşən Qaraqaya yüksəkliyini ələ keçirməsi barədə məlumat yaysalar da, Azərbaycan Müdafiə Nazirliyi yayılan məlumatları təkzib edib və heç bir ərazi itkisinin olmadığını, mövqelərin əvvəlki qaydada qaldığını bildirmişdi. Döyüş zamanı Ermənistan artilleriyası toplarla Tovuzun Dondar Quşçu və Ağdam kəndlərini də atəşə tutmuşdu.

14 iyul döyüşləri isə yaddaşımıza həm ağır, həm də silinməz hadisə ilə həkk olundu. Həmin gün Ermənistan Silahlı Qüvvələrinin bölmələri səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutmuşdu. Erməni Ordusunun hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və həmçinin hücumun qarşısını alarkən 5 hərbi qulluqçumuz da həlak oldu. Onların əziz xatirəsi hər zaman anılacaq, gələcək nəsillərə qürurla danışılacaqdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev həmin günlər bildirdi: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib". Biz torpaqlarımız-namusumuz uğrunda general-mayorumuzu, polkovnikimizi itirdik. Bununla sübut etdik ki, bu ölkədə sıravi əsgərdən tutmuş general- mayoradək, polkovnikədək hər kəs ərazi bütövlüyü uğrunda canından keçməyə hazırdır. Ta ki, Vətən tam olsun. Ta ki, əzəli torpaqlarımız, ata-baba yurdlarımız düşmən tapdağı altında qalmasın. Beləliklə, iyul döyüşləri bizim qürurumuzla yanaşı, həm də aprel döyüşləri və Günnüt əməliyyatı zamanı düşmənə verilən dərsin davamı oldu.

### Və Böyük Zəfər

2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt əməliyyatı, 2020-ci ildə İyul döyüşləri, həmin ilin sentyabrda başlanan Vətən müharibəsi, 44 günlük müharibənin Zəfərlə bitməsi, 2023-cü ildə Xankəndidə birgünlük anti-terror əməliyyatı, Qarabağın işğaldan azad olunması və soydaşlarımızın ata-baba yurdlarına qayıtmaları üçün görülən genişmiqyaslı quruculuq və bərpa işləri tariximizin şanlı səhifələrini təşkil edir. Görünür, ötən zamanın sadalanan hadisələri düşmənin başına bu hadisələr böyüklükdə daş salsa da, paxıllıq və riyakarlıq hisslərinə heç bir təsir göstərməyib. Göstərə də bilməzdi. Çünki bu hisslər onların xislətindədir və tarixin bütün dönəmlərində bu, dəyişməz olaraq qalıb.

Deməli, biz tarixin özünün də xisləti qarşısında məəttəl qaldığı elə bir tayfa ilə qonşuyuq ki, bunlar arın, abır-həyanın, utanmağın nə olduğunu əsla bilmirlər. Öyrənmək isə onların xislətində yoxdur. Bunun əvəzinə digər qonşularından həmişəki kimi yenə də dəstək alıb hərdən utanmazcasına sərhədlərimizə atəş açır, nə istədiklərini anlamadan yenə də başqalarının tapşırıqlarına baş əyirlər. Sual olunur, nə vaxtadək? Axı bütün cəhdləriniz boşa çıxır. Heç nəyə nail ola bilmirsiniz. Bunu görmək nə qədər çətindir ki?..

Azərbaycan öz torpaqlarını qorumağa qadirdir. 30 il sonra işğaldan azad etdiyi torpaqları isə göz bəbəyi kimi qoruyur. Bu xalq son nəfərinədək canından keçər, lakin bir qarış torpağının düşmən əsarətinə keçməsinə razı olmaz. Bunu düşmən hələ də anlamayıbsa, özündən küssün. Qarşıda onu nələrin gözləyəcəyini düşünsün.

Biz isə hər ilin aprelində Aprel döyüşlərini, mayında Günnüt əməliyyatını, iyulunda İyul döyüşlərini, sentyabrında 44 günlük qəhrəmanlıq salnaməsini, noyabrında Böyük Zəfərimizi xatırlamaqla, 300 ildən sonra bütövləşmiş Azərbaycanımızla qürur duyacağıq. Və bu qürur tarixini xalqa bəxş edənləri unutmayacaq, çoxəsrlik tariximizin şanlı səhifəsi olaraq nəsillərdən-nəsillərə daşıyacağıq.

Şəhidlərimiz, qazilərimiz minlərlə olsa da, arzusuna, kamına yetməyən Vətən oğullarının acısı minlərlə ailələrin ömürlük kədəri, bunlar isə xalqın ümumi ələmi olsa da, Vətən torpaqlarının işğaldan azad edilməsi, bütövləşməsi, suverenliyimizin və konstitusiya quruluşumuzun bərpa olunması da bu xalqın ümumi sevinci, qürurudur. Odur ki, analar nə yaxşı ki, igid oğullar dünyaya gətirir. O igidlər Ali Baş Komandanımızın möhtəşəm sərkərdəliyi ilə alınmızdan qara ləkəni sildi. Bizə namusumuzu, şərəfimizi, ləyaqətimizi qaytardı.

*Mətanət Məmmədova*

Dünyada elə dövlətlər var ki, onlar bəşəriyyət üçün təhlükə mənbəyidir. Çünki Almaniya, Fransa, Niderland, Ermənistan, Hindistan, ABŞ və digər bu kimi ölkələr tarixən qəsbkar, terrorçu fəaliyyətləri ilə seçilib və tanınıblar. Bu ölkələr başqa dövlətlərin ərazilərinə xain hücumlar təşkil edib, insanları kütləvi şəkildə öldürüb, şəhər və kəndləri məhv ediblər. Fransa bu gün də işğalçılıq siyasətini həyata keçirir. 20 -yə yaxın ərazini işğal edən Fransa bununla qəsbkar, vandal bir dövlət olduğunu nümayiş etdirir. Dəfələrlə BMT-yə üzv ölkələr, eləcə də müxtəlif nüfuzlu beynəlxalq təşkilatlar Fransadan işğal etdiyi əraziləri boşaltmaq barədə qətnamələr qəbul etsələr də, rəsmi Paris qətnamələri icra etməkdən imtina edir. Almaniya da vəhşiliyinə və qəddarlığına görə Fransadan heç də geri qalmır. Əksinə, yalnız iyirminci əsrdə 100 milyona yaxın insanın həyatına son qoyan iki dünya müharibəsinin əsas müəllifi və iştirakçısı olmaqla müəyyən məsələlərdə Fransadan da irəli olduğunu nümayiş etdirib. İkinci Dünya müharibəsinin başlanmasının bir neçə səbəbi mövcuddur. Birincisi, 1914-1918-ci il dünya müharibəsindən sonra qalib dövlətlərin yaratdıqları Versal-Vaşinqton sisteminin çox sərt və alçaldıcı olması idi ki, bunu Almaniya özünə təhqir hesab edirdi. İkincisi, Avropanın mərkəzində, Almaniyada qisasçılıq və militarizm ideyasının yüksək dərəcədə inkişaf etməsi, üçüncüsü, Hitler "reyx"inin irqçilik, "dəyərsiz xalqları" əsarət altına almaq siyasəti, ümumən dünya ağalığına nail olmaq iddiaları, dördüncüsü, Qərb dövlətlərinin, xüsusən İngiltərə və Fransanın nasizmin bəşəriyyət üçün təhlükə olmaq mahiyyətini dərk etməmələri, hətta onu şirnikləndirmək və sakitləşdirmək siyasətləri, beşincisi, iri dövlətlərin, o cümlədən ABŞ-in "qarışmamaq" mövqeyi tutmaları, altıncısı, ABŞ başda olmaqla iri dövlətlərin Almaniyanın iqtisadi-hərbi cəhətdən dirçəlməsinə yardım etmələri, yeddincisi, sosializmə nifrət edən burjua-demokratik ölkələrin SSRİ ilə birlikdə faşizmə qarşı vaxtında alternativ ittifaq yaratmaq zəruriyyətini dərk etməmələri, səkkizincisi, SSRİ-nin müharibəni özündən uzaqlaşdırmaq üçün Almaniyaya güzəştlər etməsi, hətta onunla iqtisadi əlaqələr yaratması və nəhayət, doqquzuncusu, iyirminci əsrin 30-cu illərin axırları üçün Avropada və Şərqdə hərbi-sənaye komplekslərinin olmazın dərəcədə şişməsi idi.

# Almaniya Rusiyaya zərbələr endirə bilər

*Nasist Almaniyası Litvada 5 min nəfərlik daimi hərbi kontingent yerləşdirir*








## Almaniya faşizmi 70 milyon insanın həyatına son qoydu

1939-cu il 1 sentyabrda Almaniya Polşa üzərinə hücuma keçdi. 1939-cu il 1 sentyabrda saat 4:45 radələrində Danzig limanında olan alman müharibə gəmisi "Schleswig-Holstein" Polşaya aid "Westerplatte" adlı gəmiyə atəş açdı. Bu tarix uzun bir müddət, İkinci Dünya müharibəsinin rəsmi başlanğıc tarixi olaraq qəbul edildi. Halbuki 4:40 radələrində alman bombardman təyyarələri, Breslau'nun 100 km şərqindəki "Wielun" qəsəbəsinə hücum etmiş və 1200 insanın həyatına son qoymuşdu. Bundan əvvəl isə bir Alman-Slovak bölüyü 26 avqust tarixində Jablona Keçidi'ni işğal etmişdi. Bölük komandirinə hücum tarixinin təxirə salındığı xəbərini bildirmək unudulmuşdu. Fitnə-fəsad yolu ilə hücuma keçən Almaniya sərhədləri pozaraq Polşa üzərinə 57 diviziya (1,5 milyon adam), 2500 tank, 2000 təyyarə göndərdi. 3 sentyabr tarixində İngiltərə və Fransa Almaniyaya müharibə elan etdilər. Sentyabrın 3-10 arasında Avstraliya, Yeni Zelandiya, Hindistan, Kanada Almaniyaya qarşı müharibəyə qoşuldular. Bu gün olduğu kimi o zamanda ABŞ hiyləgər siyasətini ortaya qoydu, bəyan etdilər ki, onlar müharibəyə qoşulmurlar. 1940-cı ilin aprel və may aylarında almanlar qəflətən Norveçi, Danimarkanın, Niderlandı və Belçikanı işğal etdilər. Hazırda dünyada özünü işğalçı dövlət kimi tanıdan və bununla da dünyaya meydan oxuyan Fransa 1940-cı il 13 iyunda alçadıcı formada Almaniya tərəfindən işğal edildi. 1941-ci ili dekabrın 7-də tərkibində 6 təyyarədaşıyan gəmi olan yapon eskadrası gizlincə ABŞ Sakit okean donanmasının Havay adalarındakı Perl-Harbor əsas bazasına yaxınlaşaraq ona güclü zərbə endirdi. Nəticədə 8 linkorndan 5-i batırıldı, 3-ü zədələndi, yüzlərlə əsgər və zabit öldürüldü. Bundan sonra ABŞ bitərəfliyinə son qoyub, ikinci dünya müharibəsinə qoşuldu. Müharibənin sonunu isə Sovet ittifaqı gətirdi. SSRİ-nin nizami ordusu, müasir hərbi sistemi, dəmir hərbi idarəetməsi Almaniyanın işğalçılıq maşınını sıradan çıxartdı. Müharibənin əsas qalibi SSRİ olsa da, ən çox insan itkisinə, böyük dağıntılara məruz qalan da sovetlər oldu. İkinci dünya müharibəsində 70 milyon insan həyatını itirdi ki, onun da 30 milyonu sovetlər birliyinə daxil olan respublikaların əhalisi olmuşdur. Yalnız İkinci Dünya müharibəsində Azərbaycandan cəbhəyə 700 minə yaxın döyüşçü getmişdir ki, onun da 350 mini müharibənin qubanı oldu. Almaniya İkinci Dünya müharibəsindən sonra müttəfiqlərin birgə qərarı ilə tərksilah olmuş və ordu saxlamaqdan məhrum edilmişdir. Lakin hazırkı dünya siyasətində baş verən müəyyən boşluqlardan və xaosdan istifadə edən Almaniya yenidən dirçəlməyə və dünyanı hərbi silah-sursatı ilə hədələməyə başlayıb.

## Almaniya Rusiyanın sərhədlərinə ordu yığır

Bu gün dünyada baş verən müharibələrin xranologiyasına nəzər yetirsək, məlum olar ki, bütün müharibə və münaqilərdə Almaniya bu və digər formada iştirak edir. Xüsusilə də, Rusiya-Ukrayna müharibəsində Almaniya daha fəal iştirakçıdır. Səbəbi də nasistlərin ölkənin hakimiyyətinə güclü təsir etmələridir. Fridrix Merz Almaniya kansleri seçildikdən sonra daha böyük çeşidlə Ukraynaya hərbi yardımlara göstərməyə çalışır. Fridrix Merz bəya edib ki, Almaniya, Böyük Britaniya, Fransa və ABŞ ilə birlikdə Ukraynaya hərbi təchizatın çeşidinə qoyulan məhdudiyyətləri aradan qaldırıb. Onun sözlərinə görə, Ukrayana əldə etdiyi uzaq mənzilli raketlərlə Rusiyanın dərinliklərini vurmaq imkanı əldə edir: "Ukraynaya çatdırılan silahların çeşidinə - nə ingilislər, nə fransızlar, nə də bizim tərəfimizdən artıq heç bir məhdudiyyət yoxdur. Amerika tərəfdən də heç bir etiraz yoxdur.Bu o deməkdir ki, Ukrayna indi, məsələn, Rusiyadakı hərbi obyektlərə hücum etməklə özünü müdafiə edə bilər. Son vaxtlara qədər o, bunu edə bilməzdi və ya çox nadir istisnalarla bunu edirdi. İndi o bunu edə bilər".

Bir qədər əvvəl Almaniya Ukraynaya üçüncü "Patriot" zenit raket sistemi, dəniz katerləri və "Vector" dronlarını ehtiva edən yeni bir hərbi yardım paketi verib. Yardım paketinə "Patriot"dan başqa, onun üçün raketlər və ehtiyat hissələri, həmçinin "Leopard 1" tanklarının döyüş sursatları, həmçinin 30 ədəd "Vector" kəşfiyyat PUA-sı, pilotsuz təyyarələrin söndürülməsi üçün 200 mobil cihaz; 10 dəniz kateri; 10 zirehli maşın və 3 patrul maşını; "Gepard" zenit tankları üçün 55 min 155 mm mərmi və 9 min digər mərmilər daxildir.

Hadisələrin inkişafı onu deməyə əsas verir ki, Almaniya kansleri Fridrix Merz Rusiyanın zərərsizləşdirilməsi daha israrlı görünür. Bəzi hallarda o canlı qüvvə ilə Ukraynaya hərbi dəstəyin göstərilməsini təklif edir. Hələlik isə onun bu təklifi müttəfiq ölkələr tərəfindən dəstəklənmir. Fridrix Merz isə təkbaşına ağılsız addım atmaq istəmir. Düşünür ki, Ukraynaya canlı qüvvə göndəilsə, bu Rusiyanın qəzəbinə səbəb olar və Berlin Rusiyanın raket hədəfinə çevrilər. Ona görə də, hələlik Rusiyanın sərhədləri yaxınlığında ordu toplamaqla gələcək hücumlara hazırlıqlar görürür. Artıq məlum olduğu kimi, Almaniya İkinci Dünya müharibəsindən sonra ilk dəfə olaraq ölkə xaricində - Litvada 5 min nəfərlik daimi hərbi kontingent yerləşdirir. Hələlik isə Litvada 400 alman hərbçisi xidmət edir. Briqadanın şəxsi heyətinin 2027-ci ilədək 5 min nəfərə (4800 hərbi qulluqçu və 200 mülki əməkdaş) çatdırılması, eləcə də bütün texniki təchizatla təmin olunması nəzərdə tutulur.Almaniyanın Kansleri Fridrix Merts və müdafiə naziri Boris Pistorius bununla əlaqədar Litvaya səfər ediblər."Litva" (Litauen) adı verilən 45-ci tank briqadası Vilnüsdə böyük coşqu ilə qarşılanıb. Alman hərbi texnikaları Vilnüsün mərkəzindəki Katedral meydanında nümayiş olunub, sakinlər əsgərlərlə fotolar çəkdiriblər.Litva Prezidenti Gitanas Nauseda bu günü "tarixi gün" adlandırıb və alman əsgərlərinə təşəkkür edərək deyib: "Sizin burada olmağınız təkcə Litvanı deyil, bütün Avropanı daha təhlükəsiz və güclü edir".

Almaniya Kansleri Fridrix Merts çıxışında bildirib ki, bu addım Almaniyanın NATO qarşısında öhdəliklərinə və Avropanın təhlükəsizliyinə ciddi əhəmiyyət verməsinin göstəricisidir. Kansler Almaniya və digər müttəfiqlərin NATO-nun Şərq cinahını gücləndirilməsinə xüsusi diqqət ayırdığını vurğulayıb. Almaniyanın NATO-nun təhlükəsizliyi və müdafiəsi naminə Silahlı Qüvvələrinə böyük investisiya qoyduğunu qeyd edən F.Merts bildirib ki, ölkə bununla müttəfiqlərinə də bir siqnal göndərmək istəyir. "Biz müttəfiqlərimizlə birlikdə ittifaq ərazisini istənilən təcavüzə qarşı müdafiə etməkdə qətiyyətliyik. Baltikyanı müttəfiqlərimizin təhlükəsizliyi bizim də təhlükəsizliyimizdir. Biz Baltikyanı tərəfdaşlarımızın yanında qətiyyətlə dayanırıq... Əziz litvalılar, siz bizə - Almaniyaya güvənə bilərsiniz", - deyə Almaniyanın Kansleri bildirib.

## Almaniya susdurulmalı və İkinci Dünya müharibəsindən sonrakı vəziyyətə gətirilməlidir

Rusiya hakimiyyəti Almaniyanın Litvada ordu yerləşdirməsini bu ölkənin Rusiyaya qarşı müharibə hazırlığı kimi qiymətləndirib. Rusiya parlamentinin yuxarı palatasının beynəlxalq məsələlər komitəsinin sədr müavini Vladimir Cabarov Rusiya ilə müharibə olacağı təqdirdə Almaniyanı yanğınla hədələyib. O, Bundesverin baş müfəttişi Karsten Broyerin 2029-cu ildə Rusiya ilə mümkün müharibə üçün alman ordusunu lazım olan hər şeylə təchiz etmək barədə sözlərini müvafiq şəkildə şərh edib: "Düşünürəm ki, bu danışdıqları ilə Almaniyanın hazırkı liderləri sadəcə olaraq hakimiyyətdə olmayacaqlar və Rusiya ilə müharibəyə hazır olsalar, külə qovuşacaqlar. Rusiyanın Almaniya xalqı qarşısında heç bir mənəvi öhdəliyi yoxdur, çünki almanlar bir neçə dəfə müharibə ilə gəliblər. Başqa cavablar olmayacaq, Almaniya üçün sonuncu ola biləcək bir zərbə olacaq".

Bir sözlə, nasist Almaniyasının yenidən silahlanması və ordusunu gücləndrməsi dünya üçün təhlükədir. Ən azı İkinci Dünya müharibəsində üzləşdiyi alçaldıcı təslimçilik aktının qisasını almaq üçün Rusiyaya qarşı müharibəyə başlaya bilər ki, bu da nəticə də NATO-nun müharibəyə qoşulması ilə yekunlaşar. Rusiyanın nüvə silahından istifadəsi bəşəriyyətə dəhşətli fəlakətlər yarada bilər. Ona görə də, Almaniya susdurulmalı və İkinci Dünya müharibəsindən sonrakı vəziyyətə gətirilməlidir.

***İLHAM ƏLİYEV***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb*

**ELMİN SONU**

*(XXVII YAZI)*



Seriyamızın bundan əvvəlki hissələrində insan orqanizminin öz fəaliyyətini davam etdirməsi və özünü qoruması üçün malik olduğu biotexnoloji sistemlərdən danışmışdıq. Keçən yazıdan etibarən isə insan orqanizmində insanın necə yaranması haqda maraqlı faktları təqdim edirik.

## İnsan orqanizmindən insan necə yaranır? 2-ci hissə

İnsanın formalaşma mərhələləri möcüzələr zənciridir. Hüceyrələr nizamlı şəkildə bir araya gələrək bədəni formalaşdırır. Əlləri, qulaqları, gözləri, qan damarlarını, ayaqları, ürək, beyin və sinir hüceyrələrini qururlar. Hər hüceyrənin DNT-si insan bədəninin bütün təfərrüatlarını izah edən milyardlarla məlumatı ehtiva edir. Halbuki rüşeymdəki hüceyrələr milyardlarla insan arasından ancaq aid olduqları orqan haqqında məlumatları tapıb oxuyurlar. Bu məlumata görə, hüceyrələr orqan və toxumalar qurur. Hüceyrənin DNT-dəki məlumatı deşifrə etmə qabiliyyəti üzərində düşünülməsi lazım olan bir mövzudur. Ana bətnində əmələ gələn tək bir hüceyrə 9 ay ərzində görən, eşidən, hiss edən, nəfəs alan və düşünən insana çevrilir və bu çevrilmənin hər bir detalı mükəmməl bir plana uyğun olaraq baş verir. Üstəlik, bu möcüzə milyonlarla ildir eyni mükəmməlliklə təkrarlanır.

HAŞİYƏ: ”Sizi torpaqdan, sonra bir damla sudan, sonra laxtadan (rüşeymdən) yaradan Odur. Sonra səni körpə olaraq dünyaya gətirir, sonra yetkinliyə çatmaq üçün sənə müəyyən ömür verir, sonra qocalmaq üçün sənə müəyyən ömür verir. Bəziləriniz başqalarından əvvəl canını itirəcək; (Allah sizi belə yaşadır) ki, müəyyən bir müddətə yetişəsiniz və bəlkə ağlınızı işlədəsiniz. Diriləndə də, öldürən də Odur. O, bir şeyin olmasını istədiyi zaman ona sadəcə olaraq ”Ol” deyir, o da olur. (Mömin surəsi, 67-68)

Ana bətnindən yapışan hüceyrələr bu təhlükəsiz yerdə qidalanmağa və inkişaf etməyə davam edir. Ancaq bu, son dərəcə təəccüblü bir vəziyyətdir. Çünki normal şəraitdə ana bətnində sürətlə böyüyən embrion böyük təhlükə ilə üzləşir: ananın immun sistemi.

İmmunitet sistemi bədənə daxil olan hər hansı yad orqanizmi düşmən hesab edir və ona hücum edir. Ananın bədənindən fərqli genetik məlumatlara malik olan embrion da orqanizm üçün yad orqanizmdir. Əslində, ananın qanında olan müdafiə hüceyrələri bu yad orqanizmin varlığını aşkar edən kimi dərhal uşaqlığa doğru tələsirlər. Əgər xüsusi tədbir görülməsəydi, müdafiə hüceyrələrinin embrionu öldürməsi qaçılmaz olardı.

Ancaq xəstəlik halları istisna olmaqla, belə bir şey baş vermir, çünki embrion əvvəldən xüsusi tədbirlərlə qorunur.

Embrion uşaqlıq divarına yapışmazdan əvvəl ana uşaqlığının ətrafında formalaşmağa başlayan trofoblast hüceyrələri ananın damarları ilə embrion arasında bir növ filtr əmələ gətirir. Müdafiə hüceyrələri bu süzgəcdən keçə bilmir və buna görə də embrion müdafiə hüceyrələrinin hücumundan qorunur. Üstəlik, bu hüceyrələrdən bəziləri rüşeym üçün oksigen və qida kimi lazımı materialları çatdırılmasına da kömək edir.



Ən müasir texnologiya ilə istehsal edilən, milyonlarla dollar dəyərində olan və ən müasir xəstəxanalarda istifadə edilən həyati dəstək bölmələri bir neçə kiloqramlıq bir ət parçası ilə müqayisədə son dərəcə primitiv və qeyri-kafidir. Bu ət parçası alimlər tərəfindən ”əsl doğuş qəhrəmanı” kimi təsvir edilən plasentadır.

Müəyyən bir dövrdə embrion ananın qanından qida, oksigen və inkişafı üçün lazım olan digər maddələr almağa başlayır. Plasenta ana ilə embrion arasında bu maddələrin mübadiləsini təmin edən bir quruluşdur; Ana ilə embrion arasında körpü rolunu oynayır. Plasentanın strukturu inkişaf etməkdə olan dölün bütün ehtiyaclarını ödəmək üçün yaradılmışdır.

Plasenta trofoblast hüceyrələrindən sızan qidaları körpəyə daşıyan yumşaq qan damarları ilə doludur. Plasenta anadan gələn bütün qidaları, oksigeni, dəmir və kalsium kimi vacib mineralları ilk olaraq göbək bağına, oradan da embrionun kapilyarlarına ötürür. Üstəlik, plasenta təkcə embrionun maddələr mübadiləsi üçün lazım olan qidaları təmin etmir, həm də yeni toxumaların əmələ gəlməsi üçün lazım olan qidaları seçib dölə daşıyır. Amin turşuları döl tərəfindən bütün sintez növləri üçün istifadə edilməlidir. (karbohidratlar, nuklein turşuları - DNT-nin tikinti materialları -, yağlar və s.) Plasenta bunları xüsusi olaraq seçir və tutur. Bu adətən xüsusi daşıyıcılar vasitəsilə edilir. Onları saxlayır, özü üçün lazım olanı istifadə edir və bəzilərini dölün dövriyyəsinə göndərir. Qidalardan başqa, ionlar da plasentadan keçir. Xüsusilə 2 ion döl üçün çox vacibdir və onları böyük miqdarda saxlamalıdır. Bunlardan biri də dəmirdir. Qan həcmini artırmaq üçün lazımdır. Digəri isə sümüklərin inkişafı üçün lazım olan kalsiumdur. Onların transferi çox təsirli və vasvası olur. Ananın qəbul etdiyi dəmir miqdarı az olsa belə, plasenta körpə üçün lazım olan miqdarı ananın qanından alaraq nə olursa olsun körpənin ehtiyacını ödəyir və onu hər cür təhlükədən qoruyur.

Plasenta bu prosesin əksini də ustalıqla yerinə yetirərək, lazımsız maddələri embriondan ananın qanına nəql edir.

İnsanın yaradılış möcüzəsində bəhs edilən əsas hadisələr hüceyrələrin və hüceyrələri meydana gətirən molekul və atomların göstərdiyi şüurlu davranışlardır. Təbii ki, bu şüur onların heç birinə deyil, onları Yaradana məxsusdur.

Dölü plasenta ilə birləşdirən uzun ipə bənzər bir quruluş olan göbək kordonunda 3 qan damarı var. Bu damarlardan birinə göbək venası deyilir. O, tərkibində qida və oksigen olan qanı plasentadan körpəyə ötürür, digər ikisi isə göbək arteriyalarıdır. Bu damarlar karbon qazı ilə yüklənmiş qan və tullantı qidaları körpədən plasentaya daşıyır.

Güclü və elastik quruluşu sayəsində göbək kordonu asanlıqla dolanmır və sıxılmır. Bu, qan nəqlində heç bir çatışmazlıq olmamasını təmin etmək cəhətdən əhəmiyyətli bir xüsusiyyətdir. Bundan əlavə, kordonun elastik quruluşu körpənin hərəkət sərbəstliyini təmin edəcək ən uyğun formadadır.

Körpə ilə ananın bədəni arasında əlaqəni təmin edən göbək bağından 3 ayrı xətt keçir. Bu xətlərdən biri embriona qida və oksigeni daşıyır. Beləliklə, embrion maye ilə dolu bir mühitdə yaşamasına və ağciyərləri su ilə dolmasına baxmayaraq boğulmaz, həzm sistemi olmadığı və yemək yeyə bilmədiyi halda acından ölməz. Digər 2 xətt embrionun istehsal etdiyi tullantıları embriondan çıxarır. Göründüyü kimi, embrion mükəmməl texnologiya ilə yaradılmışdır.

Funksiyalarına nəzər salındıqda, plasentanın rüşeym üçün bəzən ağciyər, mədə və ya bağırsaq, bəzən qaraciyər, bəzən də böyrək funksiyasını yerinə yetirəcək şəkildə yaradıldığı görünür. Üstəlik, plasenta bunları sabit bir ardıcıllıqla etmir, ancaq körpənin dəyişən ehtiyaclarını nəzərə alır. Məsələn, dölün birinci və ikinci aylarda ehtiyac duyduğu qidalar səkkizinci və doqquzuncu aylarda lazım olandan fərqlidir. Ancaq plasenta bunu mükəmməl bir tarazlıqla tənzimləyir və hər mərhələdə embrionun həzm etməsi üçün ən asan qidaları seçir.




Plasentanın ən mühüm funksiyalarından biri döl üçün zəruri olan estrogen və progesteron kimi hormonları ifraz etməkdir. Bu hormonlardan progesteron ananın bədənində uşaqlıq yolunu stimullaşdıraraq körpəyə fiziki dəstək verir. Uşağın inkişafını davam etdirməsi üçün ən rahat mühiti təmin edir. Həm də ananın süd vəzilərinin inkişafına kömək edir, beləliklə də vaxtı gələndə süd əmələ gəlməsinə kömək edir. Üstəlik, effektivliyini artıraraq ananın metabolizmini dəstəkləyir. Beləliklə, ananın sağlamlığına və rahatlığına töhfə verir. Uşaqlıq yolunu embrion üçün rahat və təhlükəsiz bir yerə çevirən bu hormonlar körpənin sağlam doğulması üçün tam lazımi miqdarda ifraz olunur. Bundan əlavə, bu hormonlar ananın orqanizmini doğuşa hazırlayır.

Bütün bu funksiyalara əlavə olaraq, plasenta da hamiləliyin son 3 ayında baş verə biləcək infeksiyalara qarşı embriona toxunulmazlıq təmin edir.

İndiyə qədər izah edilənlər, plasentanın embrionun inkişafı zamanı yerinə yetirdiyi funksiyalardan yalnız bir neçəsidir. Üstəlik, burada izah etdiyimiz hər mövzuda təsəvvür ediləndən daha çox təfərrüat var. Hər bir sistem baş verəcək bir çox mürəkkəb kimyəvi proseslərdən asılıdır.

Plasenta embrionun dəyişən ehtiyaclarını hesablaya bilən və bu ehtiyacları tam ödəyə bilən maşındır. Onun ən xarici təbəqəsindəki hüceyrələr ananın qan damarları ilə embrion arasında bir növ filtr əmələ gətirir. Məsələn, qida maddələrinin keçməsinə icazə verdiyi halda, immunitet sisteminin müdafiə elementlərinin keçməsinə icazə vermirlər. Bu hüceyrələr embrionun ehtiyaclarını, onu hansı hüceyrələrdən qoruyacaqlarını hardan bilirlər? Embrionun ehtiyac duyduğu maddələri milyonlarla molekul arasından necə ayırd edirlər? Ritorik sualdır və cavab məlumdur.

Hüceyrələrdən ibarət bir toxumanın canlının ehtiyaclarını bilməsi, çatışmazlıqları müəyyən edib aradan qaldırmağı bilərək hərəkət etməsi, lazımi maddələri lazımi miqdarda istehsal edib və xaricdən seçib qəbul etməsi yüksək şüurlu fəaliyyət deməkdir.

Plasenta dediyimiz bu toxuma parçası bu mühüm işləri tam və qüsursuz yerinə yetirir. Şübhəsiz ki, plasentanın quruluşundakı mükəmməllik və onun şüurlu hərəkətləri Yaradıcının onu bu xüsusiyyətlərlə yaratmasının nəticəsidir. Əksini mübahisə etmək ağılın hüdudlarından kənara çıxmaqdır. Yaradan insan bədənində yaratdığı möhtəşəm texnologiya ilə misilsiz yaradıcılıq sənətini bizə göstərir.

HAŞİYƏ: ”Məgər insan əvvəl heç mövcud olmadığı halda, bizim onu yaratdığımızı heç düşünmürmü? (Quran, Məryəm surəsi, 65-67)

Buraya qədər verilən nümunələrdən də göründüyü kimi, plan daxilində hərəkət edən, yeri gələndə vəzifə dəyişən, harada dayanacağını bilən, vəzifələrindən əl çəkməyən, komanda halında işləyə bilən, ehtiyaca görə seçim edə bilən, lazım olan anda lazım olan maddələri istehsal edə bilən bütün varlıqlar bədəndəki hüceyrələrdir. Bu görünməz varlıqların davranışlarında çox yüksək bir ağıl var. Bu ağıl hüceyrələrə aid ola bilməz. Şüursuz və cansız atomlardan ibarət olan hüceyrələr düşünmək və qərar vermək qabiliyyətinə malik ola bilməzlər. Bu üstün şüur və ağıl yalnız Yaradana məxsusdur. İnsanın bu möcüzəvi hadisələri daha dərindən qavramasına, Yaradanın sonsuz qüdrətinə və yaratma sənətinə şahidlik etməsinə kömək etdiyi üçün bu həqiqəti daim diqqətdə saxlamaq vacibdir.

*(Ardı olacaq)*

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
28 may
2025-ci il

# Otun bahalaşması ətin qiymətinə necə təsir edir?



## Ekspert mühüm detalları açıqladı

"Ot, heyvandarlıq sektorunda əsas yem bazasını təşkil edir və bu resursun qiymətindəki dəyişikliklər istehsalın iqtisadi səmərəliliyinə birbaşa təsir göstərir. Xüsusilə, Azərbaycanda geniş yayılmış qapalı heyvandarlıq sistemləri çərçivəsində saxlanılan ətlik və südçülük istiqamətli heyvanların yem rasionunun böyük hissəsi yaşıl yemlər, xüsusilə də otla təmin olunur. Lakin azad otlaq sahələrinin məhdudluğu bu sahədə alternativlərin məhdud olmasına və ot məhsullarına olan tələbatın artmasına səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı ekspert Akif Nəsirli deyib.

Akif Nəsirli sözlərinə belə davam edib: "Mövcud iqlim dəyişiklikləri və hava şəraitinin qeyri-sabitliyi səbəbindən biçilmiş ot məhsullarının keyfiyyəti ciddi şəkildə təsirlənə bilər. Xüsusilə, biçin dövründə yağıntının intensiv olması biçilmiş otun fermentasiyasına və qidalılıq dəyərinin azalmasına səbəb olur. Belə şəraitdə istifadəyə yararsız hala düşmüş ot məhsulları bazarda defisit yaradır və bu da qiymətlərin süni şəkildə yüksəlməsi ilə nəticələnir.

Digər mühüm amil kimi, yanacaq və enerji daşıyıcılarının qiymətləri də heyvandarlıq məhsullarının istehsalına təsir edir. Əldə olunan statistik göstəricilərə əsasən, kənd təsərrüfatı məhsullarının, o cümlədən otun istehsalında yanacaq və texniki resursların xüsusi çəkisi 40-60% arasında dəyişir. Dizel yanacağının qiymətindəki artım mexaniki becərmə, ot biçini və nəqliyyat xərclərini artırmaqla maya dəyərinin yüksəlməsinə və son nəticədə ət və süd məhsullarının bazar qiymətlərinin artmasına gətirib çıxarır.

Nəticə etibarilə, ot və enerji resurslarının qiymətindəki dəyişikliklər, heyvandarlıq məhsullarının istehsal səmərəliliyinə və ərzaq təhlükəsizliyinə birbaşa təsir göstərən əsas amillərdəndir. Bu səbəbdən, ot məhsullarının davamlı təminatı və qiymət sabitliyinin qorunması üçün dövlət tərəfindən subsidiya mexanizmlərinin təkmilləşdirilməsi, iqlim risklərinə qarşı sığorta sistemlərinin tətbiqi və alternativ yem bazalarının inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır".

*Ayşən Vəli*

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Bu gün 33 dərəcə isti olacaq



Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, 27-dən 28-nə gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-19° isti, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-70%, gündüz 40-45 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntılar kəsiləcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Şərq ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21° isti, gündüz 28-33° isti, dağlarda gecə 5-10° isti, gündüz 15-20° isti olacaq.

## ELAN

***Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir***

AZƏRBAYCAN ƏNƏNƏVİ MUSİQİSİ VƏ MÜASİR TEXNOLOGİYALAR KAFEDRASI

Baş müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru

***Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər. Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.***

# Bakıda marketdən 13 min manata yaxın oğurluq olub

***Bakıda marketlərdən oğurluq edən şəxslər saxlanılıblar. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Xəzər rayonunda yerləşən marketlərin birindən 12600 manat oğurlanıb. Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli tötəmkdə şübhəli bilinən Biləsuvar rayon sakini 30 yaşlı C.Qasımlı saxlanılıb.***



Səbail rayonu ərazisində də analoji hadisə baş verib. Marketlərin birindən 1133 manat oğurlamaqda şübhəli bilinən əvvəllər məhkum olunmuşlar 24 yaşlı İ.Həsənov və 34 yaşlı Ş.Xudiyeva saxlanılıblar. Faktlarla bağlı araşdırma aparılır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000